

Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV

HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR

# Vergilər

№ 37 (777) ■ 23 sentyabr 2015 www.vergiler.az Qiyməti: 40 qəp.

# Prezident İlham Əliyevin Kürdəmir və Ağsu rayonlarına səfəri

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 17-də Kürdəmir rayonuna gəlib. Dövlətimizin başçısı əvvəlcə rayon mərkəzində Heydər Əliyev adına parkda ümummilli liderin abidəsini ziyarət edib, önünə gül dəstəsi qoyub.

Sonra Kürdəmir şəhərində Bayraq Meydanının açılışında iştirak edən dövlətimizin başçısı ərazinin əvvəlki və indiki vəziyyətini əks etdirən fotostendə baxıb, rəmzi açılışı bildirən lenti kəsib. Bildirilib ki, meydanda hündürlüyü 62 metr olan bayraq dirəyi ucaldılıb. Dirəyin yerləşdiyi üst meydançada dövlət himninin mətni, dövlət gerbinin və Azərbaycanın xəritəsinin təsvirləri yerləşdirilib. Bayraq Meydanı əhalinin asudə vaxtının səmərəli təşkili, dövlət rəmzlərinin təbliği və gənc nəslin dövlətçilik ənənələrinə sədaqət ruhunda tərbiyə edilməsi işinin yaxşılaşdırılması məqsədilə inşa olunub.

Qeyd edilib ki, beş hektar sahədə yerləşən Bayraq Meydanının ərazisində geniş abadlıq-quruculuq işləri görülüb, fəvvarələr quraşdırılıb. Meydanda Bayraq Muzeyi inşa edilib, rayon gənclərinin asudə vaxtının və istirahətinin səmərəli təşkili məqsədilə gənclər kafesi inşa olunub. Burada, həmçinin, idman qurğuları meydançası, velosiped zolağı salınıb.

Sonra Kürdəmirdə Heydər Əliyev Fondunun təşəbbüsü ilə inşa olunan 100 yerlik körpələr evi-uşaq bağçasının, Mollakənd-Axtaçı-Öyləqulu avtomobil yolunun, Yeni Azərbaycan Partiyası Kürdəmir rayon təşkilatının inzibati binasının açılışında iştirak edən dövlətimizin başçısı rayonda əsaslı şəkildə yenidən qurulan Tarix-Diyarşünaslıq Muzeyində yaradılan şəraitlə tanış olub. Kürdəmirə səfərini başa çatdıraraq Ağsu rayonuna gələn Prezident İlham Əliyev Ağsu İdman Kompleksinin açılışında iştirak edib. Dövlətimizin başçısına bildirilib ki, Heydər Əliyev Fondunun təşəbbüsü ilə inşa olunan kompleksin tikintisinə 2013-cü ilin may ayında başlanıb. Tikinti işləri ən yüksək səviyyədə aparılıb və bu ilin sentyabrında başa çatdırılıb. Kompleksin həyətində geniş abadlıq-quruculuq işləri görülüb. Foyedə ümummilli lider Heydər Əliyevin idmançılara göstərdiyi qayğını, müxtəlif dövrlərdə Ağsuya səfərlərini əks etdirən fotolardan ibarət stend yaradılıb. Burada, həmçinin, Prezident İlham Əliyevin idmanın inkişafına göstərdiyi diqqəti və bu rayona səfərlərini əks etdirən fotolar da maraq doğurur. Kompleksdə idmanın bir çox növləri ilə məşğul olmaq üçün hərtərəfli şərait yaradılıb. Uzunluğu 18,5, eni isə 11 metr olan hovuz böyüklər və balacalar üçün nəzərdə tutulub. Burada sauna, masaj otağı və türk hamamı da yaradılıb.



Azərbaycan Prezidenti Yeni Azərbaycan Partiyasının Ağsu rayon təşkilatının inzibati binasının və Ağsu Şahmat Məktəbinin açılış mərasimlərində də iştirak edib.

Ağsuya içməli suyun verilməsi mərasimində də iştirak edən dövlətimizin başçısına bildirilib ki, şəhərin içməli suya tələbatını təmin etmək üçün suyun Külüllü ərazisində Girdimançayın məcrası altından və Ağsuçayın yuxarı hissəsində mövcud olan quzey bulaqlarından götürülməsi nəzərdə tutulub. Külüllü ərazisində dəniz səviyyəsindən 175 metr yüksəklikdə yerləşən mövcud suqəbuledici qurğudan içməli suyun borularla Ağsu şəhərinə və rayonun 8 kəndinə ötürülməsi məqsədilə həmin ərazidə məhsuldarlığı 52,5 litr/saniyə olan nasos stansiyası və magistral boru kəməri, o cümlədən nasos stansiyasından təzyiq tənzimləyici anbarına qədər magistral təzyiqli boru kəməri tikilib. Bundan başqa, Ağsu rayonunun Padar, Gursulu, Kalağaylı, Yenilik, Pirhəsənli və Elabad kəndlərinin 5260 nəfər əhalisini içməli su ilə təmin etmək üçün magistral boru kəmərindən su çıxışı verilib. Eyni zamanda, su şəbəkəsindən rayonun Təklə və Muradlı kəndlərinin 1080 nəfər əhalisini içməli su ilə təmin etmək üçün su çıxışı da hazırdır. Dövlətimizin başçısına məlumat verilib ki, artıq layihə üzrə müxtəlif diametrli içməli və magistral su xətləri, o cümlədən şəbəkə su xətti çəkilib və bunun üzərində 5493 ev birləşməsi və 481 yanğın hidrantı quraşdırılaraq nəzərdə tutulan işlər yekunlaşıb. Abonentləri içməli su ilə təmin etmək üçün 5020 sayğacın quraşdırılması başa çatdırılıb. Bundan əlavə, müxtəlif diametrli kanalizasiya xətləri, o cümlədən kollektor xətti çəkilib. Kanalizasiya şəbəkə xətləri üzərində 5301 ev birləşməsi və 3136 baxış quyusu quraşdırılıb. Çirkab su təmizləyici qurğunun tikintisi üçün Muradlı kəndinin ərazisində torpaq sahəsi ayrılıb və hazırlıq işlərinə başlanılıb. Çirkab su təmizləyici qurğusundan çıxan təmizlənmiş suyun mövcud Ağsu kollektoruna axıdılması nəzərdə tutulub.

Sonra Prezident İlham Əliyev Ağsu ictimaiyyətinin nümayəndələri ilə görüşüb.

# Qurban bayramı münasibətilə Azərbaycan xalqına təbrik

Sizi dünya müsəlmanlarının birlik və həmrəylik rəmzi olan müqəddəs Qurban bayramı münasibətilə ürəkdən təbrik edir, ən səmimi arzu və diləklərimi yetirirəm.

Demokratik prinsiplərin, dini etiqad və vicdan azadlıqlarının bərqərar edildiyi Azərbaycan Respublikasında Qurban bayramı hər il dövlət səviyyəsində böyük təntənə ilə qeyd olunur. Bu günlər ölkəmizin möminləri tərəfindən dini ayinlər yerinə yetirilir, dövlətimizin firavanlığı və tərəqqisi üçün dualar edilir, Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərimizin ölməz xatirəsi ehtiramla yad olunur. İnsanlar Tanrıya yaxınlığın, mənəvi-əxlaqi dəyərlərə bağlılığın sevincini yaşayır, xeyirxah amallar uğrunda hər cür fədakarlığa hazır olduqlarını nümayiş etdirirlər. Qurban mərasimləri cəmiyyətimizdə bərabərlik və dözümlülük ovqatını daha da gücləndirir, milli-mənəvi həmrəyliyin, humanizm və qardaşlığın, xeyirxahlıq və mərhəmət duyğularının parlaq ifadəsinə və təcəssümünə çevrilir.

Əziz bacı və qardaşlarım!

Mübarək Qurban bayramı günlərində bir daha sizə və ölkəmizin hüdudlarından kənarda yaşayan bütün soydaşlarımıza səmimi təbriklərimi yetirir, uca Tanrıdan xalqımızın və dövlətimizin əmin-amanlığı və rifahı naminə etdiyiniz duaların qəbul olunmasını diləyirəm. Qoy bu müqəddəs bayram ailələrinizə səadət, süfrələrinizə xeyir-bərəkət gətirsin.

Bayramınız mübarək olsun!

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 22 sentyabr 2015-ci il.**

# Azərbaycan dövləti əlillərin problemlərinə xüsusi diqqətlə yanaşır

Sentyabrın 21-də Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Respublika Əlillərin Bərpa Mərkəzinin əsaslı yenidənqurmadan sonra açılışı olub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mərasimdə iştirak edib.

Dövlətimizin başçısına görülən işlərlə bağlı məlumat verilib. Bildirilib ki, Respublika Əlillərin Bərpa Mərkəzi 1986-cı ildə ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə Cənubi Qafqazda bu sahədə ilk tibb ocağı kimi fəaliyyətə başlayıb. Müəssisənin ilk adı «Respublika Əlillərin Həkim-Əmək Ekspertizası və Sosial Reabilitasiya Dispanseri» olub. Bir neçə il sonra «Dispanser» sözü «Mərkəz» sözü ilə əvəz edilib. 1992-ci ildə Nazirlər Kabinetinin qərarı ilə Mərkəz iki yerə ayrılıb: Respublika Həkim Əmək Ekspertizası Mərkəzi və Respublika Əlillərin Bərpa Mərkəzi. Mərkəz üçün 1994-cü ildə dördmərtəbəli korpus inşa edilib və 1998-ci ildə əlavə funksional diaqnostika şöbəsi yaradılıb. O vaxtdan burada əsaslı təmir və yenidənqurma işləri aparılmayıb. 2013-cü ildə Mərkəzdə başlayan yenidənqurma işləri artıq yüksək səviyyədə başa çatıb.

Prezident İlham Əliyevin 2015-ci il martın 16-da imzaladığı fərmanla Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Tibbi Sosial Ekspertiza və Reabilitasiya Xidməti yaradılıb. Respublika Əlillərin Bərpa Mərkəzi hazırda həmin xidmətin tərkibində fəaliyyət göstərir. Mərkəz yarandığı gündən bu günədək respublikada olan bütün əlillərin, o cümlədən Azərbaycanın ərazi bütövlüyü uğrunda mübarizədə sağlamlıqlarını itirmiş Qarabağ müharibəsi əlillərinin, 20 Yanvar, Çernobıl, Əfqanıstan hadisələri zamanı əlil olmuş insanların müayinə və müalicəsində yüksək peşəkarlıq göstərir. Mərkəzdə fizioterapiya və psixoloji korreksiya, tibbi-sosial reabilitasiya və funksional diaqnostika şöbələri var.



Fizioterapiya və psixoloji korreksiya şöbəsində parafin vannaları, su ilə müalicə kabinetləri, hovuz, müalicəvi vannalar, müxtəlif duşlar, şarko sirkulyator, müalicə otaqları və fitobar fəaliyyət göstərir. Bu şöbədə, həmçinin, müasir fizioterapiya aparatları, skelet dartması üçün traksion masa və müasir kineterapiya aparatları var. Böyük idman zalı, həmçinin əlavə məşğələ otaqları müasir avadanlıq və qurğularla təmin edilib. Burada quraşdırılan robot aparatlardan hərəkət funksiyası məhdud xəstələr istifadə edirlər.

Prezident İlham Əliyevə tibbi sosial reabilitasiya şöbəsində yaradılan şəraitlə bağlı da məlumat verilib. Əlli çarpayılıq şöbədə palatalar 1, 2 və 3 nəfərlikdir. Otaqların hamısında məhz bu kateqoriyadan olan insanların rahat yaşaması üçün lazımi şərait yaradılıb. Bərpa müalicəsi alanların mərkəzə qəbulu tibbi-sosial ekspert komissiyalarının, müalicə-profilaktika müəssisələrinin, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin göndərişlərinə əsasən həyata keçirilir. Mərkəzdə 16 yaşdan yuxarı bütün kateqoriyalardan olan əlillərə xidmət göstərilir. Birinci qrup əlillər 21 gün, ikinci və üçüncü qrup əlillər isə 18 gün tam bərpa kursu keçirlər. Bu müddətdə onlar gündə üç dəfə sağlam və təbii qida ilə təmin olunurlar. Mərkəz il ərzində 1000 nəfərə yaxın əlilin reabilitasiya və müalicəsi ilə məşğul olur. Əlillərin xarici ölkələrdə də müalicəsinə diqqət göstərilir. Mərkəzin həkim və tibb heyəti vaxtaşırı xarici ölkələrdə təkmilləşmə kursuna cəlb olunur, öz bilik və bacarıqlarını artırır.

Funksional diaqnostika şöbəsində xəstələrin diaqnostikası üçün ən müasir avadanlıq quraşdırılıb. Qarabağ müharibəsində sağlamlığını itirənlərin və şəhid ailələrinin problemlərinin həlli ölkədə həmişə diqqət mərkəzində saxlanılıb. Prezident İlham Əliyevin göstərişləri və sərəncamları əsasında bu kateqoriyadan olan vətəndaşların mənzillə təmin olunması məqsədilə son bir neçə ildə paytaxtda və regionlarda yeni çoxmənzilli yaşayış binaları, o cümlədən fərdi evlər tikilib. Dövlətin əlil vətəndaşlara qayğısı çərçivəsində yeni reabilitasiya mərkəzlərinin tikintisi də həyata keçirilib. Respublika Əlillərin Bərpa Mərkəzində yaradılan şərait də bir daha sağlamlıq imkanları məhdud insanların dövlətin diqqət və qayğısı ilə əhatə olunduğunu nümayiş etdirir.

2 Vergilər naziri Naftalanda vətəndaşları qəbul edib

3 Müasir vergi sistemi modernləşmə tələb edir

4 Vergi ödəyicilərinə xidmətin səviyyəsi genişləndirilir

5 Azərbaycan insan kapitalına ciddi sərmayə qoyur

# Vergilər naziri Naftalanda vətəndaşları qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırıq və tövsiyələrinə uyğun olaraq, mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri bölgələrdə vətəndaşları qəbul edir, onların qarşılaşdıqları problemlərin həllinə köməklik göstərirlər.



Sentyabr ayının 18-də vergilər naziri, birinci dərəcəli dövlət vergi xidməti müşaviri Fazil Məmmədov Naftalan şəhərində Naftalan, Daşkəsən, Göygöl və Kəlbəcər rayonlarından olan vətəndaşları qəbul etmişdir. Qəbulda vergilərin hesablanması, ödənilməsi, nəzarət-kassa aparatlarının tətbiqi, POS-terminalların quraşdırılması, əmək müqavilələrinin bağlanılması, vergi borcları, vergi nəzarəti tədbirləri sahəsində sahibkarların qarşılaşdıqları problemlər, əməkhaqqı fondundan ödənilən icbari ödənişlər, vergi ödəyicilərinə göstərilən xidmətlər, vergi orqanlarına işə qəbul, yerli (bələdiyyə) vergilərin toplanması prosesində rast gəlinən müxtəlif çətinliklər və digər məsələlərlə bağlı vətəndaşların müraciətlərinə baxılmışdır.

Qəbul zamanı vətəndaşlar tərəfindən qaldırılan problemlərin əksəriyyəti yerindəcə həll olunmuş, müraciətlərin bir qismi nəzarətə götürülmüş, digərlərinin araşdırılması və lazımi tədbirlərin görülməsi ilə bağlı müvafiq tapşırıqlar verilmişdir. Qəbula gələn vətəndaşlar onlar üçün yaradılmış bu imkandan razılıqlarını bildirmişlər.

# İnformasiya resurslarının təhlükəsizliyi ilə bağlı tədbir

Vergilər Nazirliyinin İnformasiya təhlükəsizliyinin idarəetmə Şurasının növbəti iclası keçirilmişdir. Tədbirdə vergi orqanlarında istifadə edilən informasiya resurslarının təhlükəsizliyinin təmin olunması, kommersiya sirri təşkil edən məlumatların qorunması üzrə təkmil vasitələrin tətbiqi və s. məsələlərlə bağlı müzakirələr aparılmışdır.

İnformasiya təhlükəsizliyinin idarəetmə Şurasının sədri, vergilər nazirinin 1-ci müavini Natiq Əmirov Şuranın qarşısında duran məsələlərlə bağlı çıxış edərək AVİS-də məlumat təhlükəsizliyi, vergi orqanlarında kommersiya sirri təşkil edən məlumatların qorunması ilə bağlı həyata keçirilməsi vacib olan tədbirlərə toxunmuşdur. Bildirmişdir ki, vergi ödəyicilərinə aid məlumatların mühafizəsi, vergilərlə əlaqədar məxfi informasiyaların elektron və digər daşıyıcılarda saxlanılması, vergi sisteminin kiber hücumlardan qorunması məqsədilə Vergilər Nazirliyi tərəfindən informasiya təhlükəsizliyinin idarə edilməsi sisteminin yaradılması, tətbiqi, istismarı, daim nəzarətdə saxlanılması və təkmilləşdirilməsi üçün ən yüksək beynəlxalq standartın - ISO/IEC 27001:2013 «İnformasiya təhlükəsizliyinin idarəetmə sistemləri» beynəlxalq standartının tətbiqinə başlanılmış, nazirliyin informasiya sisteminin həmin standarta uyğun sertifikatlaşdırılmasına nail olunmuşdur.

Şura üzvləri çıxışlarında Vergilər Nazirliyinin struktur bölmələrində sözügedən beynəlxalq standartın tətbiqi ilə əlaqədar auditor tərəfindən daxili auditlərin keçirilməsi məsələsinə baxılması və bununla əlaqədar audit qrupunun tərkibinin müəyyən edilməsi, «Texniki tapşırıqların təftişi üzrə qrup»un fəaliyyəti və qarşıda duran digər məsələlərə toxunmuşlar. İclasda «Elektron imza üçün sertifikat xidmətlərinin göstərilməsi üzrə istifadəçi təlimatı»nın təsdiq edilməsi, Vergilər Nazirliyinin informasiya sistemlərində modulların (alt modulların), habelə hesabat formalarının yaradılması və s. məsələlərə də baxılmış, bütün bunların gələcəkdə vətəndaşlara, vergi ödəyicilərinə və dövlət qurumlarına məlumatların təhlükəsiz və sürətlə ötürülməsinə imkan yaradacağı qeyd edilmişdir.

## ÇAĞRI MƏRKƏZİNDƏ • avqust 2015-ci il




**Səsli menyu vasitəsilə daxil olan zənglər**

cəmi 4784

- 2748 — vergi borcları ilə bağlı suallar cavablandırılmışdır
- 1036 — vergilərin növləri ilə bağlı suallar cavablandırılmışdır

**Məlumatlandırılma ilə bağlı daxil olan mesajlar**

cəmi 252072

- 250796 — qısa mesaj xidməti (SMS)
- 1276 — ikitərəfli SMS xidməti

**Vergi ödəyicilərinə xidmət strukturlarında**

- 22509 — vergi ödəyicisi qəbul edilmişdir
- 35147 — xidmət göstərilmişdir

**Vergilər Nazirliyinin Vergi ödəyicilərinə xidmət mərkəzinə**

- 1871 — şəxs müraciət etmişdir
- 2574 — sayda xidmət göstərilmişdir

**Vergilər Nazirliyinin rəsmi internet səhifəsinə daxilolmalar**

560863

# Vergilər Nazirliyində struktur dəyişiklikləri

2015-ci ilin iyul ayının 13-də Azərbaycan Prezidenti İlham Əliyevin sədrliyi ilə keçirilmiş Nazirlər Kabinetinin 2015-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında verilmiş tapşırıqların icrası məqsədilə Vergilər Nazirliyində geniş tərkibdə Kollegiya iclası keçirilərək bir sıra mühüm qərarlar qəbul edilmiş, ölkə başçısı tərəfindən verilmiş tapşırıqların planlı və sistemli şəkildə həyata keçirilməsini təmin etmək məqsədilə vergilər naziri, 1-ci dərəcəli dövlət vergi xidməti müşaviri Fazil Məmmədovun əmri ilə Tədbirlər Planı təsdiq olunmuşdur.

Bu istiqamətdə görülən işlərin davamı olaraq, vergi borclarının daha səmərəli üsullarla alınması, vergi hüquqpozmalarına və cinayətkarlığa qarşı mübarizə sahəsində fəaliyyətin daha da təkmilləşdirilməsi, təhqiqat, istintaq və əməliyyat-axtarış fəaliyyətində operativliyin artırılması, istintaq prosesinə nəzarətin gücləndirilməsi məqsədilə vergilər nazirinin 15 sentyabr 2015-ci il tarixli əmri ilə Vergilər Nazirliyinin aparatının, Vergilər Nazirliyi yanında Vergi Cinayətlərinin İbtidai Araşdırılması, Xüsusi Rejimli Vergi Xidməti və Bakı Vergilər departamentlərinin, Vergilər Nazirliyinin ərazi vergilər departamentləri və idarələrinin, rayon vergilər şöbələrinin strukturunda bəzi dəyişikliklər edilmişdir.

Dəyişikliklər, ilk növbədə, vergi borclarının dövlət büdcəsinə tam həcmdə alınmasının təmin olunması ilə bağlıdır. Qeyd edilməlidir ki, Vergilər Nazirliyi tərəfindən vergi borclarının dövlət büdcəsinə səfərbər olunması istiqamətində son dövrlər ciddi addımlar atılmışdır. Dövlət büdcəsi qarşısında borcu olan ödəyicilərin öhdəliklərinin vaxtında və tam həcmdə yerinə yetirilməsinin təmin edilməsi vasitəsi kimi borclu vergi ödəyicilərinin əmlaklarının siyahıya alınması, nəqliyyat vasitələrinin üzərinə həbs qoyulması, bank hesablarına sərəncam göndərilməsi, ölkədən getmək hüquqlarının məhdudlaşdırılması, habelə xeyli və ya külli miqdarda vergiləri ödəməkdən yayınan şəxslərin cinayət məsuliyyətinə cəlb edilməsi və belə vergi ödəyicilərinin adlarının ictimaiyyətə açıqlanması kimi vasitələrdən daha geniş istifadə olunmağa başlanmışdır.

Vergi borclarının daha səmərəli üsullarla alınması ilə bağlı mütərəqqi beynəlxalq təcrübəyə əsaslanaraq, aparılmış yeni struktur dəyişikliklərinə əsasən, dövlət büdcəsinə olan vergi borcları ilə Vergilər Nazirliyi yanında Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamenti yalnız cinayət tərkibi yaradan vergi borcları haqqında materiallar istintaq və təhqiqat strukturlarına daxil olduqdan sonra deyil, hər bir borcun yarandığı ilk gündən etibarən məşğul olmağa başlayacaq. Bu isə cinayət tərkibi yaradan vergi borcu materiallarının xeyli sayda azalmasına, borclu vergi ödəyicilərində məsuliyyət hissinin artmasına və onların gələcəkdə cinayət törətməkdən çəkinmələrinə səbəb olacaq, habelə dövlət büdcəsinə borclardan daxil olan vəsaitlərin məbləğinin artmasına müsbət təsir göstərəcəkdir.

Bu işləri daha səmərəli həyata keçirmək məqsədilə Vergilər Nazirliyinin Vergi borclarının alınması işinin təşkili idarəsinin bazasında Cinayət xarakterli vergi hüquqpozmalarının təhlili və vergi borclarının alınması işinin təşkili Baş İdarəsi yaradılmışdır.

Vergilər Nazirliyi yanında Xüsusi Rejimli Vergi Xidməti Departamenti və Bakı Vergilər Departamentinin, eləcə də ərazi vergi orqanlarının tərkibində fəaliyyət göstərən vergi borclarının alınması strukturları ləğv edilərək, onların əvəzinə Vergilər Nazirliyi yanında Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamentinin tərkibində Vergi borclarının məcburi alınması idarəsi yaradılmışdır. Bu idarənin tərkibinə risklərin təhlili və nəzarət şöbəsi, məhkəmə qərarlarının icrası üzrə şöbə, habelə hər bir ərazi vergi orqanı üzrə yerlərdə fəaliyyət göstərəcək, lakin birbaşa Vergilər Nazirliyi yanında Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamentinə tabe olacaq 14 şöbə yaradılmışdır.

Vergilər nazirinin digər əmri ilə xarici dövlətlərin vergi təşkilatları, banklar, sığorta təşkilatları və maliyyə institutları, beynəlxalq və regional maliyyə qurumları ilə maliyyə xarakterli məlumatların mübadiləsini təşkil etmək, bu təşkilatlarla Vergilər Nazirliyinin müvafiq sahədə əməkdaşlığını əlaqələndirmək, təcrübə mübadiləsi xarakterli qarşılıqlı səfərlər və görüşlər təşkil etmək, habelə maliyyə institutlarında vergi monitorinqi aparmaq məqsədilə Vergilər Nazirliyində müvafiq struktur yaradılmışdır. Görüləcək tədbirlər nəticəsində Azərbaycan Respublikası sahibkarlarının digər ölkələrlə biznes əlaqələri, habelə xarici dövlətlərdəki biznes fəaliyyətləri təhlil olunacaq və bu sahədə vergidənyayınma hallarının qarşısının alınması məqsədilə digər dövlətlərin vergi və maliyyə orqanları ilə qarşılıqlı əməkdaşlıq təmin ediləcəkdir.

Vergilər nazirinin əmri ilə yaradılmış strukturlara kadr təyinatları da həyata keçirilmişdir. Vidadi Məmmədov Cinayət xarakterli vergi hüquqpozmalarının təhlili və vergi borclarının alınması işinin təşkili Baş İdarəsinin rəisi, Zeynalabdin Məmmədzadə Vergilər Nazirliyi yanında Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamentinin rəisi təyin edilmişdir.

# Təkrar şikayət təmin olunmayıb

Vergilər Nazirliyi yanında Bakı Vergilər Departamenti tərəfindən aparılmış araşdırma zamanı «Abdu» MMC-də 2012-2013-cü illər üzrə «Mənfəət vergisinin bəyannamələri»nin təqdim olunması zamanı real dövriyyənin gizlədilməsi və vergidənyayınma riski müəyyən edilmişdir. Aşkar olunmuş uyğunsuzluqlarla əlaqədar müəssisəyə «Kameral vergi yoxlaması üçün zəruri olan sənədlərin (məlumatların) tələb edilməsi haqqında» uyğunsuzluq məktubu göndərilərək dəqiqləşdirilmiş «Mənfəət vergisinin bəyannamələri», müəssisənin gəlir və xərclərini özündə əks etdirən təsdiqedici sənədlər və əsaslandırılmış izahat məktubunun təqdim olunması tələb edilmişdir.

Uyğunsuzluq məktubunda göstərilən müddət ərzində tələb olunan sənədlər, əsaslandırılmış izahat məktubu və ya dəqiqləşdirilmiş vergi bəyannamələri MMC tərəfindən təqdim edilmədiyindən, departament müvafiq dövrlər üzrə mənfəət vergisi hesablayaraq, «Vergilərin hesablanması barədə qərar»ları vergi ödəyicisinə göndərmişdir.

Vergi ödəyicisi qərarların ləğv edilməsi ilə bağlı Vergi Apelyasiya Şurasına müraciət etmişdir. Şuranın iclasında «Abdu» MMC-nin 2012-2013-cü illər üzrə mənfəət vergisinə kameral qaydada hesablanmış əlavə vergi məbləğinin ləğv edilməsi barədə təkrar şikayətinə baxılmışdır. İclasda iştirak edən «Abdu» MMC-nin səlahiyyətli nümayəndəsi Fariz Rafiq oğlu Əfəndiyevdən xərc sənədlərinin və kameral vergi yoxlamasının düzgün aparılması üçün zəruri olan digər sənədlərin araşdırmaya təqdim edilməsi bildirilmiş və o, bunun üçün «Abdu» MMC-yə müəyyən müddət vaxt verilməsini xahiş etmişdir. Bu səbəbdən, Şuranın iclası 2015-ci il sentyabrın 11-dək təxirə salınmışdır. Sonrakı iclasda F.Əfəndiyev bildirmişdir ki, hazırda sənədləşmə aparmaq mümkün deyil və vergi hesab-fakturaları olmadığı üçün lazımi sənədləri təqdim edə bilməyəcək.

Araşdırma zamanı F.Əfəndiyevin təmsil etdiyi müəssisənin xərclərini təsdiq edəcək vergi hesab-fakturalarını vergi orqanına təqdim etmədiyi, vergi ödəyicisinin fəaliyyəti üzrə kameral vergi yoxlaması aparılan zaman vergi əməkdaşları tərəfindən Vergi Məcəlləsinin tələblərinin pozulması hallarına yol verilmədiyi və vergi ödəyicisi barəsində əlavə vergi məbləğinin düzgün hesablandığı, vergi ödəyicisinin təkrar şikayətində və vergi orqanına təqdim etdiyi izahatında, həmçinin Apelyasiya Şurasının iclasında öz mövqeyini sübut etmək üçün heç bir tutarlı əsas gətirmədiyi müəyyən edilmişdir. İşin faktiki halları, toplanmış materiallar, gətirilmiş dəlillər əsas götürülməklə və qanunvericiliyin müvafiq müddəaları rəhbər tutulmaqla, Vergi Apelyasiya Şurası «Abdu» MMC-nin təkrar şikayətinin təmin edilməməsi haqqında qərar çıxarmışdır.

# Vergi ödəyiciləri ilə görüşlər keçirilib

Vergi sahəsində məlumatlandırma, maarifləndirmə və təbliğat işinin genişləndirilməsi, vətəndaşlarda vergi mədəniyyətinin formalaşdırılması, o cümlədən bu sahəyə ictimaiyyətin geniş təbəqələrinin cəlb edilməsi məqsədilə Vergilər Nazirliyi tərəfindən mütəmadi olaraq sahibkarlar, onların ictimai birlikləri, qeyri-hökumət təşkilatları, təhsil müəssisələri, ictimaiyyətin nümayəndələri ilə görüşlər keçirilir. Görüşlərin keçirilməsində əsas məqsəd Vergilər Nazirliyi tərəfindən göstərilən xidmətlər, xüsusən elektron xidmətlər barədə vergi ödəyicilərinin məlumatlandırılması, vergi sahəsində biliklərinin daha da artırılmasıdır.

Sentyabrın 16-17-də Beyləqan və Lənkəran rayonlarında «Davamlı iqtisadiyyatın inkişafında vergi siyasətinin rolu» mövzusunda görüşlər təşkil olunmuşdur. Tədbirlərdə 8 və 6 saylı ƏVİ-lərin əhatə dairəsinə daxil olan rayonların sahibkarları, icra strukturlarının və ictimaiyyətin nümayəndələri iştirak etmişlər.

Görüşlərdə iştirak edən vergilər nazirinin müşaviri Ələkbər Məmmədov Azərbaycan Respublikasında həyata keçirilən vergi siyasəti, Vergilər Nazirliyi tərəfindən vergi qanunvericiliyinin təkmilləşdirilməsi, vergi inzibatçılığının möhkəmləndirilməsi, informasiya texnologiyalarının tətbiqi istiqamətində həyata keçirilən islahatlar, təqdim olunan xidmətlər barədə məlumat vermiş, vergi qanunvericiliyinə əməl edilməsinin vacibliyinin cəmiyyətə aşılanması və həyata keçirilən tədbirlər barədə ictimaiyyətin məlumatlandırılması məqsədilə bu cür görüşlərin əhəmiyyətini qeyd etmişdir.

Qeyd olunan tədbirlərdə yerli icra hakimiyyəti orqanlarının, sahibkarların, rayon ictimaiyyətinin nümayəndələri çıxış etmiş, Vergilər Nazirliyi tərəfindən təqdim olunan xidmətlər, nağdsız ödəmələrin tətbiqi sahəsinin genişləndirilməsi, vergi borclarının yaranması ilə bağlı problemlər ətrafında müzakirələr aparmışlar. Tədbir iştirakçılarının çoxsaylı sualları cavablandırılmışdır.

# Müasir vergi sistemi modernləşmə tələb edir



*Xəbər verdiyimiz kimi, sentyabrın 9-11-də Azərbaycan Respublikası Vergilər Nazirliyinin Avropadaxili Vergi Administrasiyaları Təşkilatı (IOTA) ilə əməkdaşlığı çərçivəsində «Vergi üzrə peşəkar təlim və inkişaf» Forumu keçirilib. Müsahibimiz tədbirin qonağı – Birləşmiş Krallıq, Ülahəzrətin Gəlirlər və Gömrük Komitəsi yanında Vergi və Strategiya Mərkəzinin Vergi Akademiyasının milli təlim meneceri Mark Elistar Krouforddur.*

***- Cənab Krouford, Böyük Britaniya və Azərbaycan vergi orqanları arasında qarşılıqlı əməkdaşlığın əsas istiqamətlərini necə səciyyələndirmək olar?***

- Hər iki ölkənin vergi orqanları arasında mövcud olan səmərəli əməkdaşlıq son illər daha yüksək mərhələyə qədəm qoyub. Bu sahədə qarşılıqlı faydalı səfərlərin əhəmiyyətini xüsusi qeyd etmək istərdim. Müxtəlif işgüzar səfərlər, görüşlər vergitutmanın bir sıra aktual məsələləri ətrafında faydalı müzakirələrin aparılmasına, yeni baxışların ortaya qoyulmasına, habelə müsbət təcrübələrin bölüşdürülməsinə imkan yaradır. Bu, həm də mövcud əməkdaşlığın dərinləşdirilməsi, gələcəklə bağlı hədəflərin müəyyənləşdirilməsi baxımından da əhəmiyyətlidir. Hesab edirəm ki, Azərbaycan və Birləşmiş Krallıq vergi xidməti orqanları arasında əlaqələr yüksək səviyyədədir. Bununla belə, əldə olunmuş nailiyyətlərlə kifayətlənməməli, qarşılıqlı təcrübə, texnologiya və informasiya mübadiləsini daha da genişləndirməliyik.

***- Vergi sistemi davamlı surətdə yüksək texnologiyalara əsaslanan yenilənmələr, modernləşmə, vergi ödəyiciləri üçün maksimum əlverişli şərait yaradan islahatlar tələb edir. Bu sahədə ölkənizin hansı qabaqcıl təcrübələrini qeyd etmək istərdiniz?***

- Böyük Britaniyanın vergi administrasiyası daim mütərəqqi yeniliklərə, innovasiyalara meyl edən, vergi ödəyicilərinin maraq və mənafeyinə cavab verən, durmadan islahatlar keçirən bir qurumdur. Vergi sistemimiz dünyanın aparıcı vergi sistemlərinin ən modern elementlərini özündə birləşdirir. Vergi dərəcələri, bəyannamələrin və vergilərin vaxtında təqdim olunması dövlətin və vergi ödəyicilərinin maraqlarını optimal səviyyədə uzlaşdırır. Vergi sisteminin dövlət və biznes qurumları arasında etibarlı tərəfdaşlıq prinsipinə əsaslanması xüsusilə diqqətəlayiqdir.

***- Sizcə, vergi təlimi hansı yaşdan başlanmalıdır?***

- Bu sahədə bizim fikirlərimiz Azərbaycanın təcrübəsi ilə üst-üstə düşür. Yəni Böyük Britaniyada da vergi təlimi ilə məktəb yaşlarından məşğul olunur. Bizim tədris metodumuz da sizdəki ilə eynidir. Hər bir vətəndaşın vergilərlə tanışlığının məktəb yaşlarından başlanılmasını məqsədəuyğun hesab edirəm. Çünki bugünün məktəblisi gələcəyin, sabahın fəal vergi ödəyicisidir.

***- Vergidən yayınma hallarının qarşısının alınmasında istifadə olunan hansı yolları daha məqbul hesab edirsiniz?***

- Müasir vergi idarəetmə sistemi vergi ödəyiciləri ilə birbaşa ünsiyyətin minimuma endirilməsi, xidmətlərin çoxunun elektron variantda göstərilməsi, vergilərin könüllü ödənilməsi səviyyəsinin artırılması ilə yanaşı, vergi nəzarətinin gücləndirilməsini də tələb edir. Təbiidir ki, vergi inzibatçılığının bütün sahələrində olduğu kimi, vergi nəzarəti sahəsində də modernləşdirmə aparılmalıdır və bu zaman müasir informasiya texnologiyalarının tətbiqi və vergi orqanı əməkdaşlarının peşəkar biliklərinin artırılması ön plana çıxır.

Bizim ölkədə vergi ödəyicisi qeydiyyatdan keçən kimi daimi nəzarət altına alınır. Xüsusi bir orqan da var ki, daha ciddi yayınma ilə bağlı onlar məşğul olurlar. Hazırda biz yayınmaya real rejimdə nəzarət edirik. Yayınma başlamamış artıq onu müəyyən edib qarşısının alınması üçün tədbirlər görürük. Vergi ödəyicilərindən gələn risklərin idarə edilməsinə gəlincə, riskə əsaslanan əməliyyatlardan istifadə olunur.

***- Vergi sisteminin idarə olunmasında hansı onlayn və innovativ təlim üsulları tətbiq edilir?***

- Onlayn təlimdən daha çox istifadə olunur. Bunun bir qolu olan Blendt təlim üsuludur ki, bu da ölkəmizdə geniş yayılmışdır. Vebinarlar, adi, kiçik qruplarla otaq təlimlərindən də çox istifadə olunur.

***- Böyük Britaniyanın IOTA ilə münasibətləri hansı səviyyədədir?***

- Ölkəmiz IOTA yarandığı ilk günlərdən bu təşkilatla bərabər işləyir. Biz IOTA-ya dəstək verən ölkələrdən biri kimi xüsusi, konkret mövzu ətrafında deyil, təşkilatın bütün tədbirlərində və önəmli layihələrində iştirak edirik.

***- Hazırda dünyada vergi sahəsində elektron xidmətlərin sadələşdirilməsi, vətəndaşların istifadəsi üçün mümkün qədər asanlaşdırılması istiqamətində işlər aparılır. Müasir vergi inzibatçılığının inkişaf etdirilməsi və şəffaflığın təmin olunmasında informasiya texnologiyalarının tətbiqi hansı real nəticələr verir?***

- İnformasiya texnologiyalarının yaratdığı imkanların tətbiqi vergi inzibatçılığının yeni mərhələyə qədəm qoyması ilə nəticələnmişdir. Vergi ödəyiciləri, vətəndaşlar subyektiv münasibətdən, neqativ hallardan tamamilə azad olmuş, vergi orqanları ilə vergi ödəyiciləri arasında qarşılıqlı inam və işgüzar münasibətlər yaranmışdır. Müasir elektron vergi inzibatçılığı indi elə qurulub ki, vergi ödəyicilərinin bütün əməliyyatları, vergi ilə əlaqədar öhdəlikləri real vaxt rejimində nəzarətdə saxlanılır. Bu isə vergidən yayınma hallarının vaxtında aşkar olunmasına, dövlət büdcəsinə ödəmələrin təmin edilməsinə yardımçı olur. Ən son yeniliyimiz vebinarlardır və bundan çox istifadə edirik.

***- Vergi inzibatçılığı hansı prinsiplərə əsaslanır?***

- Müasir vergi inzibatçılığının prinsipləri qiymətləndirmə, asanlıq, xərclərin azaldılması, yüksək səmərəlilik və yanaşma kimi məqsədlərə nail olmağa imkan verir. E-audit sisteminin tətbiqi nəticəsində müəssisədə risklərin müəyyənləşdirilməsinin, daxili nəzarət sisteminin təhlilinin, müəssisənin mühasibat uçotu ilə bağlı elektron faylların araşdırılmasının, səyyar vergi auditinin mümkünlüyü ortaya çıxmışdır. E-auditin tətbiqi yoxlama vaxtının dəfələrlə azalmasına, vergidən yayınma risklərinin 100% aşkar edilməsinə, vergi intizamının artmasına, vergi daxilolmalarının həcminin və davamlılığının yüksəlməsinə, vergi ödəyicilərinin müasir informasiya texnologiyaları sistemlərini, mühasibat və korporativ idarəetmə standartlarını tətbiq etməsinə, bununla da xarici investisiya mühitinin yaxşılaşmasına və audit sahəsində şəffaflığın, vergi ödəyiciləri ilə işgüzar əməkdaşlığın təmin edilməsinə şərait yaradır.

***- Azərbaycanın vergi sistemi Sizdə hansı təəssüratları yaratdı?***

- Səfər çərçivəsində bir sıra görüşlər keçirildi, təqdimatlar oldu. Bunlara əsasən deyə bilərəm ki, Azərbaycanın vergi orqanları fəaliyyətlərində dünyanın ən müasir texnoloji yeniliklərini tətbiq etməyə çalışırlar. Xüsusən də fiziki və hüquqi şəxslərin elektron qeydiyyatı, elektron bəyannamələrin təqdim edilməsi, elektron auditin təşkili, vergi və rüsumların elektron formada ödənilməsi və digər yeniliklər təqdirəlayiqdir. Azərbaycanın vergi administrasiyası vergi inzibatçılığı, xüsusən də vergi auditi sahəsində nəzərəçarpacaq uğurlar əldə etmişdir. Bir sıra yeniliklər, xüsusilə də proseslərin avtomatlaşdırılması, elektron auditin tətbiqi bizim üçün çox maraqlıdır. Əməkdaşlığımızın bundan sonra da faydalı olacağı qənaətindəyəm.

***Müsahibəni hazırladı:***
**Fəxriyyə İKRAMQIZI**

# Beynəlxalq Sülh günü qeyd olunub

1981-ci ildə 21 sentyabr BMT tərəfindən Beynəlxalq Sülh günü kimi təsis edilmişdir. Bu münasibətlə Vergilər Nazirliyi yanında Xüsusi Rejimli Vergi Xidməti Departamentində tədbir keçirilmişdir. Departamentin Vergi ödəyicilərinə xidmət şöbəsinin rəisi, baş vergi xidməti müşaviri İmanverdi Abdullayev tədbirdə çıxış edərək bildirmişdir ki, insan hüquqlarının müdafiəsi sahəsində həyata keçirilən tədbirlərin səmərəliliyinin artırılması və daha mütəşəkkil həyata keçirilməsi istiqamətində qəbul olunmuş dövlət proqramları, müvafiq strategiyalar və milli fəaliyyət planları böyük əhəmiyyət kəsb edir: «Demokratiya və insan hüquqları, sosial tərəqqi kimi ümumbəşəri dəyərlərə sadiq olan və hüquqi dövlət quruculuğu yolunda inamla irəliləyən ölkəmizdə insanların layiqli həyat şəraitinin, rifah səviyyəsinin, cəmiyyətdə özlərini təsdiqetmə imkanlarının artırılması üçün ciddi səylər göstərilir». Qeyd olunmuşdur ki, ölkə başçısının 27 dekabr 2011-ci il tarixli sərəncamı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı»nda əhalinin hüquq düşüncəsinin və hüquq mədəniyyətinin inkişaf etdirilməsi, insanlar arasında ayrı-seçkiliyin yolverilməzliyi, sülh və dözümlülük mədəniyyətinin, xalqımızın milli-mənəvi dəyərlərinin təbliği məqsədilə maarifləndirmə tədbirlərinin keçirilməsi nəzərdə tutulmuşdur. Bu tədbirlər çərçivəsində hər il ənənəvi olaraq avqustun 21-dən sentyabrın 21-dək ölkəmizdə «Sülh aylığı» elan edilir: «Milli Fəaliyyət Planı insan hüquqlarının təmin edilməsi prosesinin keyfiyyətcə yeni müstəviyə keçməsinə, universal və regional səviyyədə yeni əməkdaşlıq strategiyasının qurulmasına, dövlətlə vətəndaş cəmiyyəti arasında tərəfdaşlıq münasibətlərinin yaradılmasına xidmət edir».



Departamentin Vergi ödəyicilərinə xidmət şöbəsinin müfəttişi Həcər Mahmudova bildirmişdir ki, insan hüquqları, sülh və dözümlülük mədəniyyətinin təbliği, əhalinin hüquqi cəhətdən maarifləndirilməsi, onların hüquqi düşüncə və mədəniyyətinin günün tələbləri səviyyəsində inkişaf etdirilməsi demokratik-hüquqi dövlətin və vətəndaş cəmiyyətinin qurulması prosesinə təkan verən ən mühüm amillərdəndir: «Sülh Azərbaycanda dövlət siyasətinin tərkib hissəsidir. Təqdirəlayiq haldır ki, Azərbaycan Prezidentinin müvafiq fərman və sərəncamları əsasında bu sahədə aidiyyəti qurumlar qarşısında konkret vəzifələr qoyulmuşdur. İnanırıq ki, sülh mədəniyyəti bütün dövlətlər və xalqlar arasında münaqişələrin həlli istiqamətində başlıca amil olacaq, gələcək nəsillərin təhlükəsiz və müharibəsiz dünyada yaşamasına şərait yaradacaqdır».

Tədbirdə dünya ictimaiyyətinin diqqətinin Azərbaycanın ərazi bütövlüyünün qorunmasına, öz doğma yurd-yuvasından didərgin düşmüş insanların pozulmuş hüquqlarının bərpa edilməsinə yönəldilməsinin zəruriliyi vurğulanmışdır.

**AYTƏN**

# «Sosial-iqtisadi hüquqların müdafiəsi: dövlət və vətəndaş məsuliyyəti» mövzusunda «dəyirmi masa»

Sentyabr ayının 22-də Vergilər Nazirliyində Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) təşəbbüsü ilə ənənəvi olaraq keçirilən «Sülh aylığı» çərçivəsində «Azərbaycanın vergi jurnalı» redaksiyası tərəfindən «Sosial-iqtisadi hüquqların müdafiəsi: dövlət və vətəndaş məsuliyyəti» mövzusunda «dəyirmi masa» keçirilmişdir.

Tədbirdə İnsan Hüquqları üzrə Müvəkkilin (Ombudsman), Konstitusiya Məhkəməsinin, Ədliyyə Nazirliyinin, İqtisadiyyat və Sənaye Nazirliyinin, Əmlak Məsələləri Dövlət Komitəsinin yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin, Həmkarlar İttifaqları Konfederasiyasının, Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının, AMEA-nın İnsan Hüquqları İnstitutunun, AMEA-nın İqtisadiyyat İnstitutunun, Azərbaycan Dövlət İqtisad Universitetinin, Azərbaycan Milli Qeyri-Hökumət Təşkilatları Forumunun, Sahibkarlığa və Bazar İqtisadiyyatının İnkişafına Yardım Fondunun, Konstitusiya Araşdırmalar Fondunun və Vergilər Nazirliyinin nümayəndələri iştirak etmişlər.

Tədbirdə qeyd olunmuşdur ki, Azərbaycanın İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsman) təşəbbüsü ilə hər il respublikamızda Prezident İlham Əliyevin sərəncamları ilə qəbul olunmuş «Azərbaycan Respublikasında insan hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyyət Planı» və «Azərbaycan Respublikasında insan hüquqları sahəsində Milli Fəaliyyət Proqramı» çərçivəsində «Sülh aylığı» keçirilir. Aylıq zamanı dövlət qurumları, qeyri-hökumət təşkilatları, kütləvi informasiya vasitələri və icmalar tərəfindən insan hüquqları sahəsində səmərəli əməkdaşlığın davamı kimi silsilə tədbirlər və müzakirələr təşkil olunur.

Bildirilmişdir ki, bu gün Azərbaycan daxili sabitliyini, iqtisadi inkişafını qoruya bilən ölkələr sırasındadır və bütün bunlar Prezident İlham Əliyevin uğurlu siyasətinin göstəricisidir. Sülhə nail olmaq üçün iqtisadi, siyasi gücdən əlavə, ləyaqətli, daxilən vətənpərvər gənclərin olması vacibdir. «Sülh aylığı» çərçivəsində keçirilən tədbirlər ölkəmizdə insan hüquqlarının təbliğinə, insanların hüquq düşüncəsinin, hüquq mədəniyyətinin inkişaf etdirilməsinə, əhalinin müxtəlif qruplarının hüquqlarının müdafiəsinə və onların problemlərinin həllinə öz töhfəsini verməkdədir.

Tədbirdə Vergilər Nazirliyinin nümayəndələri vergi ödəyiciləri üçün yaradılmış əlverişli hüquqi baza, onların öz hüquqlarını müdafiə etməsi üçün mövcud imkanlar barədə danışmışlar. Qeyd olunmuşdur ki, insan hüquqları sahəsində təşkil edilən tədbirlərdə, o cümlədən ölkəmizdə insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində milli fəaliyyət proqramının həyata keçirilməsində Vergilər Nazirliyinin müstəsna rolu vardır. Nazirlik insan hüquqlarının, eləcə də vergi ödəyicilərinin hüquqlarının müdafiəsi sahəsində mühüm islahatlar həyata keçirir. Son illər Vergi Məcəlləsinə edilən əlavə və dəyişikliklərin böyük əksəriyyəti sahibkarlığın inkişafını stimullaşdırmağa, onların hüquqlarının qorunmasına yönəlmişdir.

Sonra mövzu ətrafında müzakirələr aparılmışdır.



## Hüquq məsləhətxanamız



Samirə Musayeva
Azərbaycan Respublikası
Vergilər Nazirliyinin Hüquq Baş İdarəsinin rəisi
vergi ödəyicilərinin suallarına cavab verir

# Nəzarət-kassa aparatından istifadə

***3 nəfər işçi ilə birlikdə bərbər xidməti göstərmək istəyirəm. Bunun üçün nəzarət-kassa aparatından istifadə etmək zəruridirmi?***

Azərbaycan Respublikasının Vergi Məcəlləsi (Məcəllə) Azərbaycan Respublikasında vergi sistemini, vergitutmanın ümumi əsaslarını, vergilərin müəyyən edilməsi, ödənilməsi və yığılması qaydalarını və digər məsələlərlə yanaşı, vergi ödəyicilərinin vergitutma məsələləri ilə bağlı hüquq və vəzifələrini də müəyyən edir. Məcəllənin 16-cı maddəsi ilə nağd pul hesablaşmalarını nəzarət-kassa aparatları vasitəsilə həyata keçirmək və nağd pul hesablaşmaları aparılan zaman alıcıya çek, qəbz, bank çıxarışları və digər ciddi hesabat blanklarını təqdim etmək və həmin çek, bank çıxarışları və ya ciddi hesabat blanklarında qanunvericiliklə müəyyən olunmuş məlumatların əks etdirilməsini təmin etmək vergi ödəyicisinin vəzifəsi kimi müəyyən olunmuşdur.

Bərbər xidməti göstərilən zaman işçilərin sayı iki nəfərdən çox olduğu halda, nağd pul hesablaşmaları nəzarət-kassa aparatları vasitəsilə həyata keçirilməlidir. Nəzarət-kassa aparatının çeklərində vergi ödəyicisinin adı, VÖEN-i, çekin vurulma tarixi və saatı, obyektin adı və yerləşdiyi ünvan, malın və ya xidmətin (işin) adı, ölçü vahidi, miqdarı, bir vahidinin qiyməti və yekun məbləğ, gün ərzində vurulmuş çeklərin sayı və nömrəsi, nəzarət-kassa aparatının markası və zavod nömrəsi, nəzarət-kassa aparatının fiskal rejiminin nişanı (əlaməti) kimi məlumatlar əks olunmalıdır (Məcəllə, maddə16.1.8.27).

Məcəllənin 16.1.10-cu maddəsində qeyd edilmişdir ki, istismar zamanı nəzarət-kassa aparatının plombu pozulduqda və ya başqa nasazlıqlar yarandıqda vergi ödəyicisi vergi orqanlarına dərhal məlumat verməklə nəzarət-kassa aparatından istifadəni müvəqqəti dayandırmalı və həmin müddətdə nağd pul hesablaşmalarının qeydiyyatının Vergilər Nazirliyi tərəfindən müəyyən edilmiş qaydada aparılmasını təmin etməlidir.

Nəzarət-kassa aparatının qeydiyyata alınması məqsədilə forması Vergilər Nazirliyi tərəfindən müəyyən edilmiş ərizə ilə vergi orqanına müraciət olunmalıdır. Onu da nəzərinizə çatdırırıq ki, nəzarət-kassa aparatının qeydiyyata alınması üçün elektron qaydada da vergi orqanına müraciət edilə bilər.

Yuxarıda qeyd olunan vəzifələrin icra edilməməsi və ya lazımi qaydada icra edilməməsi vergi qanunvericiliyi ilə müəyyən edilmiş məsuliyyətə səbəb olur. Məcəllənin 58.7-ci maddəsinə əsasən, nağd pul hesablaşmalarının aparılması qaydalarının pozulmasına, yəni nəzarət-kassa aparatları tətbiq edilmədən (nəzarət-kassa aparatları quraşdırılmadan və ya nağd ödənilmiş məbləği mədaxil etmədən), vergi orqanlarında qeydiyyatdan keçirilməmiş və ya texniki tələblərə cavab verməyən nəzarət-kassa aparatlarından istifadə olunmaqla əhali ilə pul hesablaşması qaydalarının pozulmasına, nəzarət-kassa aparatlarından istifadə edilməsi dayandırıldıqda əhali ilə pul hesablaşmalarının qeydiyyatının aparılması qaydalarının pozulmasına görə vergi ödəyicisinə təqvim ili ərzində belə hallara birinci dəfə yol verildikdə 400 manat məbləğində, ikinci dəfə yol verildikdə 800 manat məbləğində, üç və daha çox dəfə yol verildikdə 1200 manat məbləğində maliyyə sanksiyası tətbiq edilir.

Suallarınızı redaksiyamızın ünvanına: AZ 1073, Bakı ş., Landau küç., 16 və ya **s.musayeva@taxes.gov.az** elektron poçt ünvanına göndərə bilərsiniz.

## RƏQƏMLƏRİN DİLİ İLƏ

- 2015-ci ilin yanvar-avqust aylarında ölkədə fəaliyyət göstərən müəssisə, təşkilat və fiziki şəxslər tərəfindən **36 mlrd.** manatlıq ümumi daxili məhsul istehsal edilib.
- Gələn il Dövlət Neft Fondundan dövlət büdcəsinə **6 mlrd.** manat transfert nəzərdə tutulur.
- Azərbaycan 2016-cı ildə xarici ölkələrdə fəaliyyət göstərən diplomatik nümayəndəliklərin saxlanılmasına **71 mln.** manatdan çox vəsait ayıracaq.
- Bu ilin yanvar-avqust aylarında əhalinin gəlirləri əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə **5,9%** artaraq **26,67 mlrd.** manata çatıb.
- Azərbaycanda elektron ticarət dövriyyəsinin **96,5%-i** qeyri-ərzaq məhsullarının payına düşür.
- Avqust ayında əvvəlki ayla müqayisədə ərzaq məhsullarının qiymətləri **0,3%**, əhaliyə göstərilən pullu xidmətlərin qiymət və tarifləri isə **0,1%** ucuzlaşıb.

# Vergi ödəyicilərinə xidmətin səviyyəsi genişləndirilir

Vergilər Nazirliyinin Vergi ödəyicilərinə xidmət Baş İdarəsi tərəfindən hazırlanmış 2015-ci ilin yanvar-avqust ayları üzrə statistik göstəricilərə əsasən, vergi ödəyicilərinin məlumatlandırılması diqqət mərkəzində saxlanılır, xidmətlərdən faydalanan ödəyicilərin sayı isə artır.

### Rəsmi səhifələr

2015-ci ilin 8 ayı ərzində Vergilər Nazirliyinin rəsmi internet səhifəsinin sual-cavab bölməsinə 979 müraciət üzrə 1179 sorğu daxil olmuş, bundan əvvəlki ilin dekabr ayı ərzində qəbul olunmuş 16 şəxsin 27 sorğusu da daxil olmaqla 959 müraciətdən 1156-sı cavablandırılmış, o cümlədən daxil olmuş 21 sorğu baxılmaq üçün Vergilər Nazirliyinin aparatına göndərilmişdir. Nazirliyin rəsmi internet səhifəsinə (www.taxes.gov.az) daxil olan istifadəçilərin axtardıqları məlumatları tez və rahat tapması üçün istifadəyə verilmiş «Onlayn bələdçi» xidmətinə edilən 10.318 müraciətdən 10.110-u (97,98%) cavablandırılmışdır.

Bu dövrdə Vergilər Nazirliyinin rəsmi internet səhifəsinə 2.904.729 istifadəçi daxil olmuşdur. Bununla yanaşı, nazirliyin «Facebook» sosial şəbəkəsindəki rəsmi səhifəsinə avqust ayında 624 yeni istifadəçi üzv olmuş, istifadəçilərin ümumi sayı 37.684 nəfərə çatmışdır. Rəsmi internet səhifəsinin «Vergilər naziri ilə əlaqə» bölməsinə təkcə avqust ayında 140 müraciət daxil olmuşdur. «Facebook» və «Twitter» sosial şəbəkələrində, «Youtube» video-hostinq serverində və video.az saytında vergi orqanlarının fəaliyyəti barədə ictimaiyyət mütəmadi olaraq məlumatlandırılır. «Facebook» səhifəsində vergilərin ölkəmizin tanınmış simaları vasitəsilə təbliğinə xidmət edən «Tanınmışlardan ismarıc var» adlı yeni video-layihə hazırlanmışdır.

### Vergi ödəyicilərinə xidmət mərkəzləri

2015-ci ilin səkkiz ayında vergi ödəyicilərinə xidmət mərkəzlərinə 260.125 sayda müraciət etmiş şəxsə 380.644 xidmət göstərilmişdir.

Cari ilin may ayının 14-də 9 saylı Ərazi Vergilər İdarəsinin əhatə dairəsinə daxil olan Ucar və Zərdab rayonlarında müvafiq standartlara uyğun yeni xidmət mərkəzləri yaradılmışdır. Bununla da ölkə üzrə vergi ödəyicilərinə xidmət mərkəzlərinin sayı 56-ya çatmışdır. Mərkəzlərdə göstərilən xidmətlərin keyfiyyətinin və ödəyici məmnunluğu səviyyəsinin yüksəldilməsi məqsədilə indiyədək 33 mərkəzdə növbə və qeydiyyat aparatlarının, səsyazma və video-müşahidə qurğularının, kompüter avadanlıqlarının quraşdırılması təmin edilmişdir. Bundan əlavə, xidmət mərkəzlərinə müraciət edən şəxslərin internet vasitəsilə növbəyə yazılmaq imkanının yaradılması və müraciət etmiş şəxslərin müraciət vərəqələri ilə əlaqədar hazırlanmış cavab sənədlərinin hazır olub-olmaması barədə məlumatın İnternet Vergi İdarəsi vasitəsilə əldə edilməsi üçün müvafiq işlər görülmüşdür. Vergi ödəyicilərinə xidmət mərkəzlərində göstərilən xidmətin səviyyəsinin və keyfiyyətinin müəyyən edilməsi və ölçülməsi məqsədilə «Birlikdə daha yaxşı olaq!» anket sorğusu hazırlanmış və nazirliyin rəsmi internet səhifəsində yerləşdirilmişdir.

### Vergi mədəniyyətinin yüksəldilməsi

Yerli vergilərin hesablanması, ödənilməsi qaydası və müddətləri, habelə digər aktual mövzularda bələdiyyələrdəki vergi xidməti orqanlarının əməkdaşları ilə 373 görüş keçirilmişdir. Təhsil müəssisələri ilə 482, «Vergi dostları» şəbəkəsinin üzvləri ilə 78 görüş keçirilmişdir.

Əhalinin vergi mədəniyyətinin yüksəldilməsi istiqamətində vergi qanunvericiliyi və vergi inzibatçılığı sahəsində vergi ödəyiciləri üçün zəruri informasiyanı əks etdirən 13 adda kiçikhəcmli bukletlər, nazirliyin 2013-2014-cü illər üzrə fəaliyyətini əks etdirən icmal jurnallar (85.500-ü Azərbaycan, 12.200-ü ingilis dilində olmaqla 97.700 nüsxə) hazırlanaraq vergi ödəyicilərinə çatdırılmışdır.

### Çağrı Mərkəzi

Yanvar-avqust aylarında Vergilər Nazirliyinin «195» Çağrı Mərkəzinə 129.904 və ya ötən ilin müvafiq dövrü ilə müqayisədə 3,89% çox zəng daxil olmuşdur. Canlı əlaqə zamanı 136.461 sual xarakterli müraciət cavablandırılmışdır. Həmin müraciətlərin 3705-i barədə araşdırma aparılması üçün müraciət vərəqəsi tərtib edilmiş, sual xarakterli müraciətlər orta hesabla 2,5 gün ərzində cavablandırılmışdır. 8 ayda vergi ödəyiciləri tərəfindən 19.220 dəfə vergi borcu, 9227 dəfə vergi növləri barədə məlumat əldə etmək üçün səsli menyu xidmətindən istifadə olunmuşdur. Bu müddət ərzində vergi ödəyicilərinə göndərilmiş məlumat xarakterli 928645 mesajdan 916094-ü qısa, 12551-i isə ikitərəfli mesaj olmuşdur.

**AYTƏN**

# TAP layihəsi üzrə tender elan olunub



«Trans-Adriatik» (TAP) boru kəməri layihəsi çərçivəsində müşahidə nəzarəti və məlumat alınması (SCADA) sistemi, fiber-optik kabel təchizatı və çatdırılması üzrə tender elan edilib. Bu barədə məlumat TAP-ın rəsmi saytında yer alıb. Məlumatda bildirilir ki, tenderdə mühəndislik, tədarük və SCADA, telekommunikasiya və təhlükəsizlik sistemlərinin quraşdırılması nəzərdə tutulub.

TAP-ın layihə direktoru Norman İnqramın sözlərinə görə, bu tenderin başlanması ilə layihənin satınalma prosesində mühüm mərhələyə qədəm qoyulur.

Uzunluğu təxminən 870 kilometr olan Trans-Adriatik boru kəməri Türkiyə ilə Yunanıstan sərhədində yerləşən Kipoi məntəqəsində də Trans-Anadolu qaz boru kəmərinə (TANAP) birləşəcək. TAP layihəsi «Şahdəniz-2» yatağından çıxarılan qazın Yunanıstan və Albaniya vasitəsilə, Adriatik dənizindən keçməklə İtaliyanın cənubuna, oradan da Qərbi Avropaya nəqlini nəzərdə tutur. Bu layihə Azərbaycan qazının İtaliya, Almaniya, Fransa, Böyük Britaniya, İsveçrə və Avstriya kimi böyük Avropa bazarlarına çatdırılması üçün geniş imkanlar yaradır.

Xatırladaq ki, TAP-ın səhmdarları bunlardır: bp (20 faiz), SOCAR (20 faiz), Statoil (20 faiz), Fluksiz (19 faiz), Enagas (16 faiz) və Axpo (5 faiz).

# Dərman preparatlarının qiymət və keyfiyyətinə dövlət nəzarəti gücləndirilir

Azərbaycan Respublikası Prezidentinin 18 mart 2015-ci il tarixli fərmanı ilə Nazirlər Kabinetinə dövlət qeydiyyatına alınmış dərman vasitələrinin qiymətlərinin tənzimlənməsi və həmin qiymətlərə nəzarətin həyata keçirilməsi qaydasının, Tarif Şurasına isə dövlət qeydiyyatına alınmış dərman vasitələrinin qiymətlərinin tənzimlənməsinin təmin edilməsi tapşırılıb. Fərmanın icrasını təmin etmək məqsədilə Nazirlər Kabineti tərəfindən 3 iyun 2015-ci il tarixli qərarla «Dövlət qeydiyyatına alınmış dərman vasitələrinin qiymətlərinin tənzimlənməsi və həmin qiymətlərə nəzarətin həyata keçirilməsi Qaydası» təsdiq edilib.

Hazırda respublikanın dərman bazarında olan durum, qiymətlərin tənzimlənməsi və keyfiyyəti əhalinin böyük marağına səbəb olub. Məsələnin aktuallığını nəzərə alaraq, Azərbaycan Respublikası Baş nazirinin müavini Əli Əhmədov sentyabrın 22-də paytaxtda yerləşən bir sıra apteklərdə əhaliyə göstərilən xidmətlərin vəziyyəti ilə maraqlanıb. Əli Əhmədov apteklərdə dərman preparatlarının qiyməti və keyfiyyəti ilə tanış olub, əczaçıların problemlərini dinləyib və onlara öz tövsiyələrini verib.

Jurnalistlərə müsahibəsində Baş nazirin müavini deyib ki, sentyabrın 15-dən etibarən Tarif Şurası tərəfindən təsdiq edilmiş 25 təsiredici maddə üzrə 1057 adda dərman vasitəsinin yeni qiymətləri qüvvəyə minib. Artıq ölkənin bütün apteklərində həmin dərman vasitələrinin eyni qiymətə satışı həyata keçirilir. Satışına icazə verilən digər dərmanların qiymətləri isə yaxın vaxtlarda müəyyənləşəcək. Məqsəd əhaliyə göstərilən tibbi xidmətin səviyyəsinin yüksəlməsinə nail olmaq, dərmanların baha qiymətə satılmasının qarşısını almaqla vətəndaşların büdcəsinə müsbət təsir göstərməkdir.

# Çirkli pulların yuyulması və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə

***Qanunla nəzərdə tutulmuş «müvafiq icra hakimiyyəti orqanı»nın səlahiyyətlərini notariuslara münasibətdə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi, hüquqi xidmət göstərən digər şəxslərə münasibətdə isə Azərbaycan Respublikasının Vergilər Nazirliyi həyata keçirir***

Ötən ilin dekabr ayında Fransanın Strasburq şəhərində Avropa Şurasının Çirkli Pulların Yuyulması və Terrorçuluğun Maliyyələşdirilməsinə Qarşı Tədbirlərin Qiymətləndirilməsi üzrə Ekspertlər Komitəsinin (MONEYVAL) 46-cı iclasında Azərbaycan Respublikasının bu sahədə IV raund qiymətləndirmə hesabatı təsdiq edilmişdir. Hesabatda nəzarət orqanlarının keçirdiyi tədbirlərin qənaətbəxş olmaması, monitorinq iştirakçılarına səmərəli və çəkindirici sanksiyaların tətbiq edilməməsi öz əksini tapmış, ölkəmizdə çirkli pulların yuyulması və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə (PL/TMM) sisteminin daha da təkmilləşdirilməsi məqsədilə bir sıra tövsiyələr verilmişdir.

Qeyd edək ki, «Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 23 fevral 2009-cu il tarixli 66 nömrəli fərmanının 4.7-ci bəndinə əsasən, Qanunun 6.1.6-cı maddəsində nəzərdə tutulmuş «müvafiq icra hakimiyyəti orqanı»nın səlahiyyətlərini notariuslara münasibətdə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi, hüquqi xidmət göstərən digər şəxslərə münasibətdə isə Azərbaycan Respublikasının Vergilər Nazirliyi həyata keçirir.

Vergilər Nazirliyi qanunvericiliyin tələblərinə əməl edilməsi vəziyyətinin araşdırılması məqsədilə notarius, vəkillik və auditor fəaliyyəti istisna olunmaqla, hüququn ayrı-ayrı sahələri üzrə hüquqi xidmətlər göstərən fiziki və ya hüquqi şəxslərdə yoxlamalar aparır. Yoxlamalar zamanı hüquqi xidmət göstərən digər şəxslər tərəfindən müştərinin, benefisiarın və ya səlahiyyətli nümayəndənin eyniləşdirmə sənədləri, müştəri tərəfindən həyata keçirilmiş pul vəsaitləri və ya digər əmlakla əməliyyatlara dair sənədlər (hesabdan çıxarışlar, əməliyyatların aparılması üçün əsas və s.) müvafiq sorğu əsasında maliyyə monitorinqi orqanına və ya Vergilər Nazirliyinə təqdim edilməlidir.

Sənədlərin tələb olunmasına gəldikdə, hüquqi xidmət göstərən digər şəxslər tərəfindən vergi qanunvericiliyinə əməl edilməsinin düzgünlüyünü yoxlamaq üçün lazım olan sənədlərlə yanaşı, aşağıdakı əməliyyatları olarsa, bu əməliyyatlarla bağlı müştərilərin eyniləşdirilmə və verifikasiyasına dair digər sənədləri də tələb olunur:

- daşınmaz əmlakın alqı-satqısı ilə əlaqədar əməliyyatlar;
- müştərinin pul vəsaitlərinin, qiymətli kağızlarının və ya digər əmlakının idarə olunması ilə əlaqədar əməliyyatlar;
- müştərinin bank və ya qiymətli kağız hesablarının idarə olunması ilə əlaqədar əməliyyatlar;
- hüquqi şəxslərin yaradılması, onların fəaliyyətinin təmin və idarə olunması, bu məqsədlərlə pul vəsaitlərinin toplanmasının təşkil edilməsi, habelə hüquqi şəxslərin alqı-satqısı ilə əlaqədar əməliyyatlar.

Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 348-3.0.6-cı maddəsinə əsasən, hüquqi xidmət göstərən digər şəxslər tərəfindən Vergilər Nazirliyinin fəaliyyətinə maneələrin yaradılmasına, o cümlədən sorğulara cavab verilməməsinə, tələb olunan sənədlərin və məlumatların təqdim edilməməsinə, yanlış məlumatların verilməsinə görə vəzifəli şəxslər 800 manatdan 1500 manatadək miqdarda, hüquqi şəxslər 8000 manatdan 15000 manatadək miqdarda cərimə olunacaqlar.

Hüquqi xidmət göstərən digər şəxslərə münasibətdə yoxlama nəticəsində qanun pozuntusu aşkar edilərsə, vergi orqanları tərəfindən Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 348-3-cü maddəsinə uyğun olaraq inzibati xəta haqqında protokol tərtib edilir və baxılması üçün rayon (şəhər) məhkəmələrinə göndərilir.

**Rəşad SADIQOV**

# Azərbaycan insan kapitalına ciddi sərmayə qoyur

Rusiyada çıxan nüfuzlu «Novıye izvestiya» qəzetinin 21 sentyabr tarixli nömrəsində Georgi Stepanovun «Azərbaycan insan kapitalına sərmayə qoyulmasına üstünlük verir» sərlövhəli məqaləsi dərc edilib. Bakının Dənizkənarı Milli Parkının təsviri ilə başlanan məqalədə bildirilir ki, çoxları bu parkı Azərbaycanın rəmzi, onun saysız-hesabsız cizgilərinin və rənglərinin cəmləşdiyi məkan kimi qəbul edir.

Müəllif Azərbaycan Respublikasının iqtisadi fenomeni, ölkədə baş verən genişmiqyaslı dəyişikliklər barədə düşüncələrini oxucularla bölüşərkən Beynəlxalq Valyuta Fondunun və ya Dünya Bankının hesabatlarından götürülmüş rəqəmlərlə oxucunu yormamağa üstünlük verir. Onun sözlərinə görə, bu rəqəmlərin və faktların arxasında konkret insan dayanır: sıravi vətəndaş və dövlət başçısı, neftçi və mühəndis, inşaatçı və müəllim, menecer və tələbə...

«XXI yüzillikdə Azərbaycanın ən birinci meyarı, onun strateji resursu, xırdalanmayan kapitalı insandır», - deyən müəllif xüsusi vurğulayır ki, həmişə Azərbaycanın əsas sərvəti sayılan neftin hasilatına zəhmət çəkilməsə, o, faydasız, ölü sərvətdir: «Bu gün energetika sektoru, neft-qaz sahəsi milli iqtisadiyyatın lokomotivləridir. Amma bir vaxtlar buna şübhə ilə yanaşanlar inandırmağa çalışırdılar ki, Bakı-Tbilisi-Ceyhan boru kəmərinin tikilməsi baş tutmayacaq və üçüncü ölkələrin nefti olmasa, bu kəmər tam gücü ilə işləməyəcək. Lakin 1994-cü il sentyabrın 20-də Azərbaycan Prezidenti Heydər Əliyev və bir sıra xarici şirkətlərin, o cümlədən «Lukoyl», bp, «Chevron», «Statoil» və «Exxon» şirkətlərinin rəhbərləri «Əsrin müqaviləsi»ni - Xəzərin Azərbaycan sektorundakı neft yataqlarının mənimsənilməsinə dair kontraktı imzaladılar. Qarşıdakı onilliklər üçün respublikanın inkişaf xəttini müəyyən edən bu müqavilə ölkə büdcəsini zənginləşdirməyə, daha sonra sürətli inkişaf və tərəqqi strategiyasına keçməyə imkan verdi. Respublikanın inkişaf prinsiplərini Heydər Əliyevin aşağıdakı sözləri son dərəcə dəqiq səciyyələndirir: «1994-cü ildən Azərbaycan dövləti özünün yeni neft strategiyasını həyata keçirir və bu strategiyanın da əsas mənası, əsas prinsipləri Azərbaycanın zəngin təbii sərvətlərindən, o cümlədən neft və qaz sərvətlərindən Azərbaycan xalqının rifahı naminə daha da səmərəli istifadə etməkdən ibarətdir».

Bütün region üçün ən mühüm «arteriyaya» çevrilən Bakı-Tbilisi-Ceyhan boru kəməri beynəlxalq enerji təhlükəsizliyinin təmin olunmasında əsas rol oynayır. Bu boru kəməri istifadəyə veriləndən sonra Azərbaycan enerji ehtiyatlarının dünya bazarlarına nəql edilməsi ilə əlaqədar başqa layihələr üzərində, ilk növbədə bu gün Avropada ən iri infrastruktur layihəsi olan «Cənub qaz dəhlizi» layihəsi üzərində iş başlandı. Bu layihənin əsas seqmentləri «Şahdəniz» qaz yatağının işlənməsi, Cənubi Qafqaz boru kəmərinin genişlənməsi, TANAP - Transatlantik layihəsinin reallaşdırılması və TAP - Transadriatik boru kəmərinin tikintisidir».

Eyni zamanda, müəllifin fikrincə, söhbət layihədən deyil, insandan gedir. Ümummilli liderin əzmkarlığı, intellekti və nüfuzu olmasaydı, bu ideyalar havada qalardı. Əlbəttə, Heydər Əliyevin irsi təkcə bu gün onun adını daşıyan Bakı-Tbilisi-Ceyhan boru kəməri ilə bitmir. Bu gün Azərbaycan hələ 1990-cı illərin əvvəllərində ümummilli lider tərəfindən əsası qoyulmuş, iqtisadiyyatdan daha çox mənəviyyatla bağlı olan prioritetlər məcrasında inkişaf edir.


НОВЫЕ ИЗВЕСТИЯ
ТЕАТРАЛ | PRO ЗДОРОВЬЕ | МИР ВЫСТАВОК
ГЛАВНАЯ | ПОЛИТИКА | ЭКОНОМИКА | МОСКВА | ПОДМОСКОВЬЕ | В МИРЕ | КУЛЬТУРА | ПРОИСШЕСТВИЯ | ОБЩЕСТВО | СПОРТ | АВТОСАЛОН
Кризис на Украине | Кризис в Греции

## Неразменный ресурс

Азербайджан предпочитает инвестировать в человеческий капитал

Георгий Степанов

В Азербайджане есть место, многими воспринимаемое как символ страны, как средоточие ее неисчислимых черт и красок. Это – Бакинский приморский бульвар, центральная набережная столицы республики. Здесь в открытых кафе кипят самовары, по старинке разогреваемые щепками или шишками. Здесь любого гостя непременно зазовут на чашку ароматного азербайджанского чая с бакинской, нахичеванской, шушинской или шекинской пахлавой. Здесь кругом – народ: семьи, дети, старики, молодежь. Люди прогуливаются, общаются, занимаются спортом и играют в нарды, едят дондурму или кебаб. Все они растворены в этом пространстве, в прохладном сумеречном бризе с Каспия. Это их земля, их море, их город, их прошлое, настоящее и будущее.

ДВОЙНОЙ УДАР ПО КРИЗИСУ
Платите за рекламу меньше – читайте Новых Известий больше

Голосование | Результаты
Считаете ли вы ЛДПР реальной политической оппозицией в РФ?
Да
Нет
Проголосовать

В фокусе дня
Мигранты прорвали полицейские баррикады и направились из Венгрии в сторону Австрии

Видео

Müəllif daha sonra yazır: «Azərbaycan həqiqətən gələcəyə istiqamətlənib - istər ultramüasir binalar və mehmanxanalar, istər qabaqcıl informasiya-kommunikasiya texnologiyaları, istərsə də bir neçə dil bilən gənc uğurlu biznesmenlərin sayının artması hesabına. Əhalinin orta yaşı 30-dan bir qədər artıqdır. Bu da Azərbaycan dövlətçiliyinin son dərəcə qiymətli resursudur, çünki sağlam ambisiyalar, ən müxtəlif fəaliyyət sahələrində öz imkanlarını reallaşdırmaq cəhdi gəncliyə xas olan cəhətlərdir.

Heç bir ölkə daim neft dollarlarının axması hesabına yaşaya bilməz. Bu həqiqəti çoxdan başa düşən Azərbaycan rəhbərliyi iqtisadiyyatı şaxələndirmək qərarına gəlib. Azərbaycanın qeyri-neft sektorunda real ümumi daxili məhsul 2004-cü ildən 2014-cü ilədək demək olar ki, üç dəfə artıb. Ola bilsin, məhz buna görə ölkə dünya böhranından minimum itkilərlə çıxıb: 2009-cu ildə onun iqtisadiyyatı 9,3 faiz artıb, halbuki elə həmin il neftin qiyməti dörd dəfə ucuzlaşıb».

Son illər ölkəmizdə əldə olunan uğurlardan geniş bəhs edən məqalədə deyilir: «Son yeddi ildə Azərbaycanda ÜDM 3,4 dəfə artıb, yoxsulluğun səviyyəsi 5 faizə qədər azalıb, 1,4 milyondan çox yeni iş yeri açılıb. Orta əməkhaqqı 500 dollar səviyyəsinə yaxınlaşıb. Dövlət sahibkarlığa və aqrar-sənaye kompleksinə ciddi yardım etdiyinə görə ölkə ərzaq məhsullarının çoxu ilə özünü təmin etməyə başlayıb». G.Stepanovun fikrincə, Azərbaycan uğurunun fenomeni icraçılıq intizamında və sınanılmış addımlardadır: bu, hər hansı islahatın universal qaydasıdır.

Müəllif daha sonra yazır: «Bu günün reallıqları belədir: 2015-ci ilin birinci yarısının yekunlarına görə, Azərbaycanın ümumi daxili məhsulu 5,7 faiz, qeyri-neft sektoru 9,2 faiz artıb. Bu dövrdə qeyri-neft sənayesinin artımı 14 faizdən çox olub. İnflyasiya 3,5 faiz, əhalinin pul gəlirlərinin artımı 6,2 faiz təşkil edib. Altı ay ərzində ölkəyə 12,7 milyard manat (12,2 milyard dollar) sərmayə yatırılıb. Həmin rəqəmləri bu yaxınlarda Nazirlər Kabinetinin iclasında Prezident İlham Əliyev söyləyib. Rusiya Elmlər Akademiyasının İqtisadiyyat İnstitutunun elmi əməkdaşı Aleksandr Karavayevin fikrincə, Azərbaycanın iqtisadi göstəriciləri hətta ən ciddi dünya meyarlarına görə ən yaxşı göstəricilər sırasındadır. Asiya İnkişaf Bankının (AİB) hesablamalarına görə, 2015-ci ildə Azərbaycan iqtisadiyyatı daha 3 faiz, 2016-cı ildə isə 2,6 faiz artacaq. Dünya Bankı bu il ÜDM-in 4,4 faiz, gələn il 4,1 faiz artacağını proqnozlaşdırır.

«Mood`s Investor Service» agentliyi öz hesabatında qeyd edib ki, Azərbaycanın fevral ayında manatı devalvasiya etməsi neftin qiymətinin düşməsinin şok təsirini yüngülləşdirib və respublikanın qeyri-neft məhsullarını daha rəqabətə davamlı edib. «Standard&Poor`s» reytinq agentliyi fevral ayında Azərbaycanın kredit reytinqini «BBB -» investisiya səviyyəsində təsdiq edib. Onun hesablamalarına görə, ölkənin xarici borcunun səviyyəsi son dərəcə aşağıdır, fiskal və xarici durumu (aktivləri) isə yetərincə möhkəmdir. Azərbaycan Dünya İqtisadi Forumunun qlobal rəqabətə davamlılıq indeksində 38-ci yerdədir və dalbadal beşinci ildir ki, MDB ölkələri arasında liderliyini qoruyub saxlayır».

Müəllif sonda yazır: «Ötən il «qara qızıl»ın qiymətinin iki dəfə düşməsi fonunda neft hasil edən ölkələrin çoxu hazırda böyük iqtisadi çətinliklərlə üzləşib, itkilərini və ziyanlarını hesablayır. Azərbaycanın isə uzaqgörən iqtisadi siyasəti və qibtəediləcək siyasi sabitliyi sayəsində hazırda nəinki öz ayaqları üzərində möhkəm dayanır, həm də gələcəyə inamla baxır».

# Azərbaycan dünyanın kosmik ölkələr ailəsinə daxil olub

Azərbaycanın «Azerspace-1» ilk telekommunikasiya peykinin və aşağıorbitli yer səthinin müşahidə peykinin - «AzərSky»ın orbitə çıxarılması ölkəmizin kosmik sənayesinin qurulması, elmi-texniki və tədqiqat işlərinin aparılması üçün yeni imkanlar yaradıb. Ölkəmiz həmçinin BMT-nin Kosmik Fəzadan Sülh Məqsədləri ilə İstifadə üzrə Komitəsi - COPUOS-a üzv qəbul edilib.

Qafqazın ilk peyk operatoru olan «Azərkosmos» Açıq Səhmdar Cəmiyyəti tərəfindən 2017-ci ildə ikinci telekommunikasiya (sayca üçüncü) və 2018-ci ildə çox yüksək ayırdetməyə malik olan ikinci müşahidə peykinin (sayca 4-cü) orbitə çıxarılması planlaşdırılır. Ümumilikdə, qarşıdakı illərdə Azərbaycan dörd peykə sahib olacaq.




«Azərkosmos» ASC «Azerspace-1» vasitəsilə teleradio yayım və telekommunikasiya xidmətlərinin göstərilməsi, hökumət və korporativ müştərilərin tələblərinə cavab verən yüksək etibarlı rabitə şəbəkələrinin təmin edilməsi istiqamətində fəaliyyət göstərməkdədir. Ötən il «Azerspace-1» peyki vasitəsilə ilə Azərbaycanın bütün televiziya və radio kanalları keyfiyyətli yayıma başlayıb. Həmçinin, tələb və rəqabətin artması, peyk tutumlarının bazar qiymətlərinə uyğun təklif olunması «Azerspace-1» peykinin əhatə etdiyi regionlarla əməkdaşlığı gücləndirməyə, eləcə də Livan, Əfqanıstan, Ərəb bazarında fəaliyyət göstərməsinə optimal şərait yaradıb. Ümumilikdə, «Azerspace-1» peykinin göstərdiyi teleradio, data və telekommunikasiya xidmətləri vasitəsilə 25 ölkə üzrə müştəri bazasının yaradılması irəliyə atılan uğurlu addımlardan hesab olunur. Hazırda, Azərbaycan, türk, ingilis, gürcü, fars, əfqan və digər dillərdə 121 televiziya kanalı yayımlanır ki, bunun da 105-i əcnəbi, 16-sı yerli kanal, eləcə də, 20 radio kanalı təşkil edir. Qeyd edək ki, milli peykin resurslarından istifadə üçün yeni müraciətlər də var. Hazırda «EuroAz», «Doktor TV», «A Sinema TV», «Star Shopping TV», «Sineklasik TV», «Zahra TV», «Kanal Z» «Azerspace-1» peykinə yeni qoşulmuş kanallar sırasındadır. Artıq «Azerspace-1» peyki regionda kifayət qədər tanınıb. Ötən il bir çox baxımlı Türkiyə kanalları «Azerspace-1» peykinə keçib. Bu il iyunun 7-də Türkiyədə keçirilən Böyük Millət Məclisinə seçkilər «Azerspace-1» peykinin resurslarından istifadə olunmaqla canlı yayımlanıb.

Hazırda «Azerspace-1» peykinin resurslarının 66 faizi kommersiya yönümlü istifadədədir. Peyk xidmətləri bazarında hər bir peykin resurslarının satışının illər ərzində tədricən artdığını nəzərə alaraq, 2,5 illik bir dövrdə kommersiya fəaliyyəti göstərən «Azerspace-1» peyki üçün resursların 66 faizinin satılması dünya təcrübəsinə əsasən uğurlu bir göstərici hesab edilir. Peyk tutumlarının satış həcminin tədricən, ildən-ilə artırılması nəzərdə tutulur.

İkinci telekommunikasiya peyki «Azerspace-2» peyk layihəsi üzrə işlər davam etdirilir. Bu ilin fevral ayının 17-də «Azərkosmos» dünyanın peyk xidmətləri üzrə aparıcı şirkəti olan «İntelsat» şirkəti ilə peykin 45° şərq uzunluğu orbital mövqeyinə qaldırılması barədə strateji razılaşma imzalayıb.

«Azerspace-2» peykinin və əlaqədar yerüstü avadanlıqların satınalması»na dair elan olunmuş açıq tenderə dünyanın aparıcı peyk istehsalçıları tərəfindən böyük maraq olub. Bu yaxınlarda «Dövlət satınalmaları haqqında» Azərbaycan Respublikası Qanununa uyğun olaraq «Azərbaycan Respublikasının ikinci telekommunikasiya peyki olan «Azerspace-2» peykinin və əlaqədar yerüstü avadanlığın satınalınması»na dair «Azərkosmos» ASC tərəfindən elan edilmiş açıq tender üzrə iddiaçıların təklifləri zərfləri açılıb. Açıq tender prosesi çərçivəsində təklif vermiş şirkətlər sırasına ABŞ-ın «Orbital ATK» və «Space Systems Loral», Çinin «China Great Wall Industry Corporation» və Fransanın «Airbus Defence and Space» şirkətləri daxildir. Bu il tender üzrə qalib şirkətin seçilməsi planlaşdırılır.

«Azerspace-2» Avropa, Mərkəzi və Cənub-Qərbi Asiya, Yaxın Şərq və Sahara səhrasından cənubda yerləşən Afrika ölkələrini əhatə edəcək. Peyk regionda DTH, hökumət təşkilatları və şəbəkə xidmətləri sahəsində artmaqda olan tələbləri qarşılamaq üçün yüksək texniki imkanlar, əlverişli əhatə zonası və keyfiyyətli xidmət göstərəcək. Yeni peyk həm də «Azerspace-1»in orbitdəki ehtiyatı olacaq və «Azərkosmos»a müştərilərə daha etibarlı xidmət göstərmək imkanı verəcək, həmçinin, «Azerspace-2» sayəsində şirkətin əhatə zonası genişlənəcək.

# Mərkəzi Bankda yeni veb servis istismara verilib

Yeni servisin üstünlüklərini şərh etmək üçün «Turanbank»ın informasiya texnologiyaları departamentinin direktoru Bəxtiyar Məmmədova müraciət etdik. Onun sözlərinə görə, Mərkəzi Bankın MKR xidmətinin təqdim etdiyi bu yeni xidmət Azərbaycanda bank sektorunun texnologiya sahəsində irəliyə doğru daha bir addımı hesab edilə bilər. Bu tip veb servislər dünya praktikasında geniş istifadə olunur. İki cihaz arasında mövcud kompüter şəbəkəsi vasitəsilə məlumat mübadiləsinin həyata keçirilməsini təmin edən bu texnologiyadan istifadə zamanı iki qurğu arasında məlumat əvvəlcədən razılaşdırılmış formatda ötürülür: qurğulardan biri sorğu göndərir, ikinci qurğu sorğunu qəbul edərək emal edir, sonra isə sorğunu vermiş qurğuya cavab göndərir. Cavabda hər hansı məlumat, sorğuya uyğun funksiyanın yerinə yetirilib-yetirilməməsi kimi məlumatlar ola bilər. Lakin sorğugöndərmə və alma prosesi əvvəlcədən razılaşdırılmış formatda olmalı və hər iki qurğuda quraşdırılmış qəbuletmə və cavablama sistemi bu formata uyğun fəaliyyət göstərə bilməlidir.

Bu texnoloji vasitənin köməyi ilə aralarında şəbəkə olan, lakin tamamilə fərqli texniki proqram təminatı, yaxud məlumat bazası olan iki qurğu öz aralarında məlumatın ötürülməsini və anında emalını daha asan təmin edə bilir. Bir qurğu digər qurğuda olan proqram təminatının funksiyaları, verilənlər bazası və strukturu barədə məlumat almadan öz aralarında onlayn məlumat mübadiləsi edir və bu zaman göndərilən və qəbul edilən məlumatlar həmin anda emal edilə bilir, göndərilmiş və ya alınmış məlumatlara uyğun işlər sistemdə avtomatik yerinə yetirilə bilir: «Məsələn, hər hansı şəxs ödəmə köşkü vasitəsilə müəyyən kodu (işıq, qaz, su üçün abunə kodu, mobil və stasionar telefon nömrələri və sair) köşkə daxil etdikdə sistem müvafiq müəssisəyə veb servis texnologiyası vasitəsilə sorğu göndərib cavab almaqla bu ödənişi həmin müəssisənin sistemində həyata keçirir və ödəniş həyata keçirilən kimi həmin müəssisənin informasiya sistemində şəxsin ödədiyi məbləğ qədər borcu silinir».

B. Məmmədov qeyd edib ki, MKR-də bu xidmət banklara kifayət qədər imkanlar yaradacaq. Xidmət istifadəyə verilənə qədər banklar kredit almaq məqsədilə müraciət etmiş şəxslərin digər banklarda olan kreditlərini yoxlamaq üçün MKR tərəfindən təqdim edilən veb-portala daxil olmalı, orada həmin şəxsin şəxsiyyətini təsdiq edən sənədin məlumatlarını daxil etməli və onun kredit borcları barədə məlumat almalı idi. Daha sonra isə bu məlumatları hər hansı fayl şəklində, yaxud kağız formatında çap edib saxlamalı və təhlil etməli idi. Lakin veb servis istifadəyə verildikdən sonra bank MKR tərəfindən təqdim edilən veb servis vasitəsilə məlumat ötürülməsi sisteminə qoşula bilər. Qoşulma banka aşağıdakı üstünlükləri vəd edir:

- Bankda kreditlərin qiymətləndirilməsi üçün hər hansı proqram təminatı (skorinq sistemi) varsa, bank proqram təminatına müvafiq dəyişikliklər etməklə kredit müraciətlərinin avtomatik qiymətləndirilməsi zamanı müraciət edən şəxs barədə MKR-ə avtomatik olaraq sorğu göndərə, şəxsin kreditləri barədə müvafiq cavab ala və kreditin avtomatik qiymətləndirilməsində bunu nəzərə ala bilər.
- Elektron arayış sisteminə qoşulmuş banklar fiziki şəxslərin elektron kanallarla (internet, SMS, e-mail və sair) edilmiş kredit müraciətlərinə avtomatik müsbət və ya mənfi cavab verilməsi sistemlərini hazırlayıb tətbiq edə bilərlər. Qeyd etmək lazımdır ki, bir sıra xarici ölkə banklarında belə sistemlər mövcuddur: bank tərəfindən müəyyən edilmiş həddə kredit almaq istəyən şəxs SMS vasitəsilə şəxsiyyətini təsdiq edən sənədin FİN kodunu banka göndərir, bank isə bu müraciət daxil olduqda müxtəlif dövlət təşkilatlarına veb servis vasitəsilə sorğu göndərib anında cavab almaqla müraciəti qiymətləndirərək saniyələr ərzində qərar qəbul edə və kredit ayıra bilir.
- Son dövrlərdə həm elektron arayış sistemində veb servisin tətbiqi, həm də MKR-in veb servis tətbiq etməsi dövlət təşkilatlarında bu texnologiyanın tətbiqi tendensiyasını gücləndirir və artıq bir sıra dövlət təşkilatlarının bu cür imkanlar yaratması ehtimalı daha da yüksəlir.

Deyilənlərdən belə nəticəyə gəlmək olar ki, MKR-in tətbiq etdiyi veb servis bankların vətəndaşlara daha operativ xidmət göstərməsinə yardım edəcək, dövlət təşkilatları və özəl sektor arasında məlumat mübadiləsini sürətləndirəcək və operativliyin artmasına xidmət edəcəkdir.

**Fəxriyyə İKRAMQIZI**

# Böyük məbləğdə vergi borcunu ödəməyən vergi ödəyicilərinə qarşı sərt tədbirlər görülür

Bakı şəhəri üzrə cari ilin səkkiz ayı ərzində vergidən yayınma halı üzrə barəsində cinayət işi açılmış və istintaqı yekunlaşdırılaraq Azərbaycan Respublikasının Baş Prokurorluğu tərəfindən məhkəməyə göndərilmiş 311 vergi ödəyicisinin siyahısı qəzetimizin ötən nömrələrində ictimaiyyətə açıqlanmışdır. Bu nömrəmizdə 3, 4, 5, 6, 8, 9, 10, 13 və 14 saylı ərazi vergilər idarələri, Laçın, Ağdam və Füzuli rayon vergilər şöbələri üzrə eyni qəbildən olan 133 vergi ödəyicisinin siyahısını dərc edirik.

Məlumat üçün bildiririk ki, vergi borcuna görə barəsində açılmış cinayət işləri məhkəməyə göndərilmiş vergi ödəyicilərinin tam siyahısı ilə Vergilər Nazirliyinin www.taxes.gov.az rəsmi internet səhifəsinin «Vergi borcunu ödəməkdən yayındırdıqları üçün barələrində cinayət işi açılmış vergi ödəyicilərinin siyahısı» bölməsində tanış ola bilərsiniz.

| S/N | Vergi orqanı | Verqi ödəyicisinin adı | Vergi ödəyicisinin rayonu |
|---|---|---|---|
| 1 | 3 saylı ƏVİ | "AĞRIDAĞ" MMC | QUBA RAYONU |
| 2 | 3 saylı ƏVİ | "BINDER" MMC | QUBA RAYONU |
| 3 | 3 saylı ƏVİ | "CAHAN-N" MMC | QUBA RAYONU |
| 4 | 3 saylı ƏVİ | "QAFQAZ İNŞAAT" MMC | QUBA RAYONU |
| 5 | 3 saylı ƏVİ | "MARS-SV" MMC | QUBA RAYONU |
| 6 | 3 saylı ƏVİ | "KORDİNATOR" MMC | QUBA RAYONU |
| 7 | 3 saylı ƏVİ | "APOLLO-2012" MMC | QUBA RAYONU |
| 8 | 3 saylı ƏVİ | "TALİSMAN-KO" MMC | QUBA RAYONU |
| 9 | 3 saylı ƏVİ | "BİLLUR M" MMC | QUBA RAYONU |
| 10 | 3 saylı ƏVİ | "APOLON-TT" MMC | QUBA RAYONU |
| 11 | 3 saylı ƏVİ | "BİRLİK-R" MMC | QUBA RAYONU |
| 12 | 3 saylı ƏVİ | İSMİYEV FƏXRƏDDİN ƏLİFXAN OĞLU | QUSAR RAYONU |
| 13 | 3 saylı ƏVİ | "DİREKT MEDİA" MMC | QUSAR RAYONU |
| 14 | 3 saylı ƏVİ | "ATLANT -DV" MMC | QUSAR RAYONU |
| 15 | 3 saylı ƏVİ | "ZEYT" MMC | QUSAR RAYONU |
| 16 | 3 saylı ƏVİ | "KONKORD -KL" MMC | QUSAR RAYONU |
| 17 | 3 saylı ƏVİ | "AF-OİL" MMC | XAÇMAZ RAYONU |
| 18 | 3 saylı ƏVİ | YUSİFOV TACƏDDİN BAHƏDDİN OĞLU | XAÇMAZ RAYONU |
| 19 | 3 saylı ƏVİ | HÜSEYİNOVA MARAL MAZAN QIZI | XAÇMAZ RAYONU |
| 20 | 3 saylı ƏVİ | "QLADİATOR R" MMC | XAÇMAZ RAYONU |
| 21 | 3 saylı ƏVİ | "NUR VİN" MMC | XAÇMAZ RAYONU |
| 22 | 3 saylı ƏVİ | "GİO PRODUCTİON" MMC | XAÇMAZ RAYONU |
| 23 | 3 saylı ƏVİ | "ATRA M" MMC | XAÇMAZ RAYONU |
| 24 | 3 saylı ƏVİ | "UNİKAL 2013" MMC | XAÇMAZ RAYONU |
| 25 | 3 saylı ƏVİ | "ART-DİZAYN" MMC | XAÇMAZ RAYONU |
| 26 | 3 saylı ƏVİ | "NAVİMOR" MMC | XAÇMAZ RAYONU |
| 27 | 3 saylı ƏVİ | "AS-MARİNE" MMC | XAÇMAZ RAYONU |
| 28 | 3 saylı ƏVİ | "PRİMA SERVİS-13" MMC | XAÇMAZ RAYONU |
| 29 | 3 saylı ƏVİ | "VENERA-T.T" MMC | XAÇMAZ RAYONU |
| 30 | 4 saylı ƏVİ | "PAVO" MMC | ŞAMAXI RAYONU |
| 31 | 4 saylı ƏVİ | "ATARİ" MMC | ŞAMAXI RAYONU |
| 32 | 4 saylı ƏVİ | DƏMİROV XƏYAL KƏRİM OĞLU | ŞAMAXI RAYONU |
| 33 | 4 saylı ƏVİ | "SƏMA İNŞAAT SƏNAYE" MMC | QOBUSTAN RAYONU |
| 34 | 4 saylı ƏVİ | QOBUSTAN RAYON KOOPERATİV CƏMİYYƏTİ | QOBUSTAN RAYONU |
| 35 | 5 saylı ƏVİ | "LİMAN-S" MMC | SABİRABAD RAYONU |
| 36 | 5 saylı ƏVİ | "FENİKS-TC" MMC | SABİRABAD RAYONU |
| 37 | 5 saylı ƏVİ | "CAVADXAN CS" MMC | SABİRABAD RAYONU |
| 38 | 5 saylı ƏVİ | ŞİRVAN SƏNAYE KOMBİNATI-2 ASC | ŞİRVAN RAYONU |
| 39 | 5 saylı ƏVİ | "AVRO-ASİYA ELEKTRO TEXMONTAJ" MMC | ŞİRVAN RAYONU |
| 40 | 5 saylı ƏVİ | "ADMEDIA" MMC | ŞİRVAN RAYONU |
| 41 | 5 saylı ƏVİ | "UNİKON" MMC | ŞİRVAN RAYONU |
| 42 | 5 saylı ƏVİ | "FİRESTON" MMC | ŞİRVAN RAYONU |
| 43 | 5 saylı ƏVİ | "EXPROMT" MMC | ŞİRVAN RAYONU |
| 44 | 5 saylı ƏVİ | "KƏPƏZ-2013" MMC | ŞİRVAN RAYONU |
| 45 | 5 saylı ƏVİ | "MEDIASHOP" MMC | ŞİRVAN RAYONU |
| 46 | 5 saylı ƏVİ | "HERMES-H" MMC | ŞİRVAN RAYONU |
| 47 | 5 saylı ƏVİ | "TEFO LTD" MMC | ŞİRVAN RAYONU |
| 48 | 5 saylı ƏVİ | "BEBO" MMC | ŞİRVAN RAYONU |
| 49 | 6 saylı ƏVİ | "İMAGE VX" MMC | LƏNKƏRAN RAYONU |
| 50 | 6 saylı ƏVİ | "OLD FREND" MMC | LƏNKƏRAN RAYONU |
| 51 | 6 saylı ƏVİ | "DİNAMİKA GROUP" MMC | LƏNKƏRAN RAYONU |
| 52 | 6 saylı ƏVİ | "FUTURA M" MMC | LƏNKƏRAN RAYONU |
| 53 | 6 saylı ƏVİ | "TTİ SERVİS" MMC | LƏNKƏRAN RAYONU |
| 54 | 6 saylı ƏVİ | "TUDOR M" MMC | LƏNKƏRAN RAYONU |
| 55 | 6 saylı ƏVİ | "EROL D" MMC | LƏNKƏRAN RAYONU |
| 56 | 6 saylı ƏVİ | "RƏVAN-2012" MMC | LƏNKƏRAN RAYONU |
| 57 | 6 saylı ƏVİ | "TRADING SERVIS GROUP" MMC | LƏNKƏRAN RAYONU |
| 58 | 6 saylı ƏVİ | "TEXFON" MMC | LƏNKƏRAN RAYONU |
| 59 | 6 saylı ƏVİ | "SANARA İMPULS" MMC | LƏNKƏRAN RAYONU |
| 60 | 6 saylı ƏVİ | "COSİNUS PLYUS" MMC | LƏNKƏRAN RAYONU |
| 61 | 6 saylı ƏVİ | "MERKURİ TƏCHİZAT" MMC | LƏNKƏRAN RAYONU |
| 62 | 6 saylı ƏVİ | "İNTERKOM-12" MMC | LƏNKƏRAN RAYONU |
| 63 | 6 saylı ƏVİ | "OPTİMAL SC" MMC | LƏNKƏRAN RAYONU |
| 64 | 6 saylı ƏVİ | "MBC GROUP" MMC | LƏNKƏRAN RAYONU |
| 65 | 6 saylı ƏVİ | "NYU TTİ" MMC | LƏNKƏRAN RAYONU |
| 66 | 6 saylı ƏVİ | "MEXANİKA SERVİS" MMC | LƏNKƏRAN RAYONU |
| 67 | 6 saylı ƏVİ | "SƏMA İNŞAAT SƏNAYE-R" MMC | LƏNKƏRAN RAYONU |
| 68 | 8 saylı ƏVİ | "FROMUS" MMC | AĞCABƏDİ RAYONU |
| 69 | 8 saylı ƏVİ | "MM EKSTRA" MMC | AĞCABƏDİ RAYONU |
| 70 | 8 saylı ƏVİ | "MONTERO" MMC | AĞCABƏDİ RAYONU |
| 71 | 8 saylı ƏVİ | "VEKTRA-S" MMC | BEYLƏQAN RAYONU |
| 72 | 8 saylı ƏVİ | "DİAMOND SERVİS" MMC | BEYLƏQAN RAYONU |
| 73 | 8 saylı ƏVİ | "YUPİTER-LD" MMC | BEYLƏQAN RAYONU |
| 74 | 8 saylı ƏVİ | "NAX STAR" MMC | BEYLƏQAN RAYONU |
| 75 | 8 saylı ƏVİ | "GOLD RİVER " MMC | BEYLƏQAN RAYONU |
| 76 | 8 saylı ƏVİ | "VOLTAREN" MMC | BEYLƏQAN RAYONU |
| 77 | 8 saylı ƏVİ | "SİLVER-LTD" MMC | İMİŞLİ RAYONU |
| 78 | 8 saylı ƏVİ | "ALPİN-KO" MMC | İMİŞLİ RAYONU |
| 79 | 8 saylı ƏVİ | "PLATİN-2011" MMC | İMİŞLİ RAYONU |
| 80 | 8 saylı ƏVİ | "VYET" MMC | İMİŞLİ RAYONU |
| 81 | 8 saylı ƏVİ | "MENA-2012" MMC | İMİŞLİ RAYONU |
| 82 | 9 saylı ƏVİ | ABDULLAYEV EHTİBAR ADİL OĞLU | KÜRDƏMİR RAYONU |
| 83 | 10 saylı ƏVİ | "BRAVO-ASD" MMC | QƏBƏLƏ RAYONU |
| 84 | 10 saylı ƏVİ | "SLAYD-CS" MMC | QƏBƏLƏ RAYONU |
| 85 | 10 saylı ƏVİ | "TERMİD-KM" MMC | QƏBƏLƏ RAYONU |
| 86 | 10 saylı ƏVİ | "RECOVE-CM" MMC | QƏBƏLƏ RAYONU |
| 87 | 10 saylı ƏVİ | "FOXİD-AE" MMC | QƏBƏLƏ RAYONU |
| 88 | 10 saylı ƏVİ | "DERMO-SM" MMC | QƏBƏLƏ RAYONU |
| 89 | 10 saylı ƏVİ | "SƏS-2012" MMC | QƏBƏLƏ RAYONU |
| 90 | 10 saylı ƏVİ | "TEXNO REM KONTEKS -20" MMC | İSMAYILLI RAYONU |
| 91 | 10 saylı ƏVİ | "BAKI TEXNO SİTY-60" MMC | İSMAYILLI RAYONU |
| 92 | 10 saylı ƏVİ | "TEXNO KO AVANTAJ-200" MMC | İSMAYILLI RAYONU |
| 93 | 10 saylı ƏVİ | "TEXNO KO EKSTRA - 400" MMC | İSMAYILLI RAYONU |
| 94 | 10 saylı ƏVİ | "ELŞƏN-İNŞAAT XXI ƏSR" MMC | OĞUZ RAYONU |
| 95 | 10 saylı ƏVİ | "BEF" MMC | OĞUZ RAYONU |
| 96 | 10 saylı ƏVİ | "AZƏRTUR-2011" MMC | OĞUZ RAYONU |
| 97 | 13 saylı ƏVİ | "TƏRƏQQİ-E" MMC | ZAQATALA RAYONU |
| 98 | 13 saylı ƏVİ | "KORONA-R" MMC | ZAQATALA RAYONU |
| 99 | 13 saylı ƏVİ | "AKSİON-N" MMC | ZAQATALA RAYONU |
| 100 | 13 saylı ƏVİ | "DİZAYN-N" MMC | ZAQATALA RAYONU |
| 101 | 13 saylı ƏVİ | "NEON-R" MMC | ZAQATALA RAYONU |
| 102 | 13 saylı ƏVİ | "VOLFA" MMC | ZAQATALA RAYONU |
| 103 | 13 saylı ƏVİ | "ZOSMA" MMC | ZAQATALA RAYONU |
| 104 | 13 saylı ƏVİ | "REQUL" MMC | ZAQATALA RAYONU |
| 105 | 13 saylı ƏVİ | "NEFTUN" MMC | ZAQATALA RAYONU |
| 106 | 13 saylı ƏVİ | "HAÇADAĞ" MMC | BALAKƏN RAYONU |
| 107 | 13 saylı ƏVİ | "AYSBERQ-T" MMC | BALAKƏN RAYONU |
| 108 | 13 saylı ƏVİ | "PLANET-N" MMC | BALAKƏN RAYONU |
| 109 | 13 saylı ƏVİ | HUDULOV MƏHƏMMƏD DİBİRHACIYEV OĞLU | BALAKƏN RAYONU |
| 110 | 13 saylı ƏVİ | "QALAKSİ-ON" MMC | BALAKƏN RAYONU |
| 111 | 13 saylı ƏVİ | "VELA" MMC | BALAKƏN RAYONU |
| 112 | 13 saylı ƏVİ | "KARİNA" MMC | BALAKƏN RAYONU |
| 113 | 13 saylı ƏVİ | "ULUBAŞ" MMC | QAX RAYONU |
| 114 | 14 saylı ƏVİ | "TİTAN QRUP" MMC | GƏDƏBƏY RAYONU |
| 115 | 14 saylı ƏVİ | "QRINBERG" MMC | GƏDƏBƏY RAYONU |
| 116 | 14 saylı ƏVİ | "PORTQİM" MMC | GƏDƏBƏY RAYONU |
| 117 | 14 saylı ƏVİ | "SPEKTR İNŞAAT" MMC | GƏDƏBƏY RAYONU |
| 118 | 14 saylı ƏVİ | "ZERVAN" MMC | GƏDƏBƏY RAYONU |
| 119 | 14 saylı ƏVİ | "FƏRMAN-2013" MMC | GƏDƏBƏY RAYONU |
| 120 | 14 saylı ƏVİ | "SABİR" MMC | QAZAX RAYONU |
| 121 | 14 saylı ƏVİ | "KAS-TEXAS-24" MMC | TOVUZ RAYONU |
| 122 | 14 saylı ƏVİ | "NANO-TEK" MMC | TOVUZ RAYONU |
| 123 | 14 saylı ƏVİ | "ESTON QURAŞDIRMA" MMC | TOVUZ RAYONU |
| 124 | 14 saylı ƏVİ | "QASTON" MMC | TOVUZ RAYONU |
| 125 | 14 saylı ƏVİ | "CLEAR S.N" MMC | TOVUZ RAYONU |
| 126 | 14 saylı ƏVİ | "CEYHUN 2007" MMC | TOVUZ RAYONU |
| 127 | 14 saylı ƏVİ | "AZAD İSTEHSALAT" MMC | TOVUZ RAYONU |
| 128 | 14 saylı ƏVİ | "MSR 1736" MMC | TOVUZ RAYONU |
| 129 | 14 saylı ƏVİ | "CASPER 2013" MMC | TOVUZ RAYONU |
| 130 | Ağdam VŞ | "TÜRKAN MİRZƏOĞLU" MMC | AĞDAM RAYONU |
| 131 | Füzuli VŞ | "VETUR" MMC | FÜZULI RAYONU |
| 132 | Laçın VŞ | "TƏCHİZAT - SD" MMC | LAÇIN RAYONU |
| 133 | Laçın VŞ | "CASPİAN STAR QROUP" MMC | LAÇIN RAYONU |

## vergi təqvimi

| SENTYABR | | | | | | |
|---|---|---|---|---|---|---|
| I | II | III | IV | V | VI | VII |
| | 1 | 2 | 3 | 4 | 5 | **6** |
| 7 | 8 | 9 | 10 | 11 | 12 | **13** |
| 14 | 15 | 16 | 17 | 18 | 19 | **20** |
| **21** | 22 | 23 | 24 | 25 | 26 | **27** |
| 28 | 29 | 30 | | | | |

**Qeyd:** *Verginin ödənilmə və bəyannamənin verilmə müddətinin sonuncu günü təqvimdə göy rənglə seçilmişdir. Həmin gün istirahət və ya bayram gününə düşdüyü halda, növbəti iş gününə keçirilmişdir.*

**Ödənilən vergi:**

21 sentyabr - «(1-1)», «3», «4», «7», «8», «10.1», «10.2» və «10.3».

**«(1-1)» - Gəlir vergisi (xüsusi notariuslar üzrə):** Xüsusi notariusların gəlir vergisi üzrə hesabat dövrü rübdür.
Xüsusi notariuslar tərəfindən hər ay ərzində aparılan notariat hərəkətlərinə, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətlərə görə alınan haqlardan (xərclər nəzərə alınmadan) 10 faiz dərəcə ilə gəlir vergisi hesablanmalı, hesablanmış vergi məbləği isə növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməlidir.

**«3» - Əlavə dəyər vergisi:** ƏDV üzrə hesabat dövrü təqvim ayı sayılır. ƏDV ödəyən vergi ödəyicisi ƏDV-nin bəyannaməsini hər hesabat dövrü üçün hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq qeydiyyatda olduğu vergi orqanına verir və vergini dövlət büdcəsinə ödəyir.

**«4» - Aksiz vergisi:** Aksizlər üzrə hesabat dövrü təqvim ayıdır. Aksizli mallar istehsal edildikdə hər hesabat dövrü üçün vergi tutulan əməliyyatlar üzrə aksizlər hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməli və vergi orqanına bəyannamə verilməlidir.

**«7» - Yol vergisi** üçün hesabat dövrü təqvim ayı sayılır. Azərbaycan Respublikasının ərazisində avtomobil benzininin, dizel yanacağının və maye qazın istehsalı ilə məşğul olan fiziki və hüquqi şəxslər yol vergisini aylıq olaraq hesablayır və hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq «Yol vergisinin bəyannaməsi»ni vergi orqanına təqdim etməklə vergini dövlət büdcəsinə ödəyirlər.

**«8» - Mədən vergisi:** Mədən vergisi üzrə hesabat dövrü təqvim ayı sayılır. Mədən vergisinin ödəyicisi hesabat ayı üçün faydalı qazıntıların çıxarıldığı aydan sonrakı ayın 20-dən gec olmayaraq vergini ödəyir və bəyannamə verir. Yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisi yerli (bələdiyyə) büdcəyə ödənilir və bələdiyyələrə mədən vergisinin bəyannaməsi verilir. Yerli əhəmiyyətli tikinti materiallarına kərpic-kirəmit gilləri, tikinti qumları, çınqıl xammalı aid edilir.

**«10.1» - Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergi:** Muzdla işləyən fiziki şəxslərə ödəmələr verən hüquqi şəxslər və fərdi sahibkarlar muzdla işləyən fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisini hesablamalı və hesablanmış məbləği növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.

**«10.2» - Ödəmə mənbəyində tutulan digər vergilər:** Hüquqi şəxslər və fərdi sahibkarlar qeyri-dövlət pensiyaları və ödəmə mənbəyində vergiyə cəlb olunmalı digər ödəmələri verərkən bu gəlirlərdən vergini tutmalı, tutulmuş məbləği gəlirin ödənildiyi rübdən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə köçürməlidirlər.

**«10.3» - Sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə ödəmə mənbəyində tutulan vergi:** Həyatın yığım sığortası və pensiya sığortası üzrə bağlanılmış sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə sığorta haqları ödəyən sığortaçılar fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisi hesablamalı və hesablanmış vergini növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.

beynəlxalq panoram

# Vergi dəyişiklikləri paketi təsdiq edilib

Yeni qanun layihəsinə əsasən, Estoniyada sosial verginin 2017-ci ildə indiki 33%-dən 32,5%-ə, 2018-ci ildən isə 32%-ə qədər azaldılması nəzərdə tutulur. Dəyişikliklər nəticəsində müəssisələrin vergi yükü 2017-ci ildə 40,5 milyon avro, 2018-ci ildə isə 86 milyon avro həcmində azalacaq.

Gözlənilir ki, sosial vergi haqqında qanuna edilmiş dəyişiklik pensiya sisteminin gəlirlərinə mənfi təsir etməyəcək. Sosial vergidən daxilolmaların azalması digər vergilərin hesabına kompensasiya olunacaq. Gəlir vergisi haqqında qanuna edilmiş dəyişikliyə əsasən, qarşıdakı 4 il ərzində vergiyə cəlb olunmayan minimum gəlirlərin həddi 205 avroya (2016-cı ildə 170 avroya) çatdırılacaq və vergiyə cəlb edilməyən minimum pensiya gəlirlərinin həddi artırılacaq. Nəticədə orta pensiyalar vergilərdən azad ediləcək.



Fiziki şəxslərə icazə verilən vergi çıxılmalarının ümumi məbləği 1920 avrodan 1200 avroya qədər aşağı düşəcək. Çıxılmalarla bağlı dəyişikliklər mənzil kreditləri üzrə ödənən faizlər, təhsil xərcləri, xeyriyyə məqsədli hədiyyələr və pul ianələrini əhatə edəcək.

Dövriyyə vergisi haqqında qanuna edilmiş dəyişikliyə əsasən, mehmanxanalar üçün vergi hazırkı 9%-dən 2017-ci ildə 14%-ə qədər artırılacaq. Hökumət qeyd edir ki, mehmanxanalar üçün verginin artırılmasına baxmayaraq, onun dərəcəsi Estoniyada qüvvədə olan ümumi dövriyyə vergisinin dərəcəsindən xeyli aşağı olacaq. Alkoqol, tütün, yanacaq və elektrik enerjisinə aksizlərin dəyişdirilməsi alkoqol və tütün məhsullarının istehlakının azaldılmasına yönəldilmiş dövlət proqramının tərkib hissəsi olmaqla yanaşı, vergi yükünün işçi qüvvəsindən istehlakın üzərinə keçirilməsi məqsədi daşıyır.

Qanun layihəsinə əsasən, 2016-cı ilin fevralından alkoqollu içkilərə aksizlərin 15% artırılması nəzərdə tutulur. 2016-2018-ci illərdə tütün məmulatlarına aksizlər daha 3% artırılacaq. Aksizin artımı 2016-cı ilin iyununda baş verəcək. 2019-2020-ci illərdə alkoqollu içkilərə və tütün məmulatlarına aksizlər daha 10% artırılacaq, benzinə isə aksizlər növbəti üç il ərzində 10% yüksələcək. 2016-cı ilin yanvarından dizel yanacağına aksizlər 14%, 2017-2018-ci illərdə isə daha 10% artırılacaq.

## Xəbər lenti

**Qazaxıstan**da siqaret çəkmək əleyhinə fəaliyyət göstərən ictimai təşkilatlar hökuməti tütün məhsulları üçün aksiz dərəcəsini 25%-dən 49%-ə qaldırmağa çağırmışlar. Onların fikrincə, bu, ölkədə siqaret çəkənlərin sayının azalmasına səbəb ola bilər.

**Polşa**nın maliyyə naziri Mateuş Şurek həm işəgötürənlər, həm də işçilər üçün hazırda mövcud olan sosial sığorta və səhiyyə haqlarının ləğv ediləcəyini bildirmişdir. Bu haqlar qüvvəyə minməsi 2017-ci ilə planlaşdırılan yeni vahid gəlir vergisinə daxil ediləcək.

**Rusiya** hökumətinin başçısı Dmitri Medvedev bildirmişdir ki, ilin ilk yarısı üzrə ölkədə büdcə kəsiri ÜDM-in 3,2%-ni təşkil edib.

**Braziliya**nın planlaşdırma naziri Nelson Barbosa və maliyyə naziri Yoahim Levi birgə bəyanat verərək bildirmişlər ki, dövlət büdcəsində tarazlıq yaratmağa kömək üçün hökumət bəzi xərcləri və vergi güzəştlərini ləğv edəcək.

**Böyük Britaniya**nın «Vətəndaşlara məsləhət» qeyri-hökumət təşkilatının araşdırmasının nəticələrinə görə, ölkədəki vergi ödəyiciləri vergi orqanlarının qaynar xətt telefonunun operatoru ilə canlı əlaqə yaratmaq üçün orta hesabla 47 dəqiqə vaxt itirməli olurlar.

**Tacikistan** vergi qanunvericiliyinə yeni məfhum - «ofşor zona/şirkətlər» anlayışını daxil edib. Bundan sonra qanunvericiliyin bu maddəsinin əhatə dairəsinə düşən şirkətlər dividendlərdən 12% həcmində vergi ödəməli olacaqlar.

**Macarıstan** hökuməti kosmetikaya, yuyucu vasitələrə və qeyri-sağlam qidalara tətbiq edilən vergiləri artırmaq niyyətindədir. Bəzi xarici firmalar bunun bazarda ayrı-seçkiliyə gətirib çıxaracağını dəlil gətirərək, nəzərdə tutulan vergilərə rəsmi etiraz etmək niyyətindədirlər. Avropa Komissiyası isə belə tədbirlərin investorları çəkindirə biləcəyini bəyan edib.

**Finlandiya** hökuməti yüksək gəlirlər üçün vergi dərəcəsinin 1 faiz bəndi artırılması təklifi ilə çıxış etmişdir. Buna səbəb kimi Yaxın Şərq ölkələrindən gəlmiş qaçqınlar üçün hökumətin çəkdiyi xərclərin yerinin doldurulması göstərilir. Bundan başqa, illik gəliri 81.800 dollardan artıq olan vergi ödəyicilərinin də iki il müddətinə «həmrəylik vergisi»nə cəlb olunacağı gözlənilir.

**İtaliya** hökuməti turizm vergisini bir sutka üçün 10 avroyadək artırmağı planlaşdırır. Çadırda yaşamağı qərara alanlar üçünsə sentyabrın 1-dən 2 avro məbləğində vergi tətbiq edilir.

Xarici ölkələrin təcrübəsi

# İspaniya Krallığının vergi sistemi: *mənfəət vergisi*



**Əvvəli ötən sayımızda**

İspaniyada vergidən yayınma məqsədilə zərərlə işləyən müəssisələrə qarşı xüsusi müddəalar tətbiq olunur. Zərərin geriyə aid edilməsi nəzərdə tutulmamışdır.

***Dərəcələr:*** 2008-ci il yanvarın 1-dən mənfəət vergisinin dərəcəsi 30%-dir. İllik dövriyyəsi 10 mln. avrodan (13 mln. ABŞ dolları) az olan müəssisələrin illik mənfəətinin ilk 300 min avro (390 min ABŞ dolları) məbləği 25% dərəcə ilə, bundan artıq məbləğ isə 30% dərəcə ilə vergiyə cəlb olunur.

2010-2014-cü vergi illərində kiçik və orta həcmli müəssisələr üçün güzəşt olaraq 300 min avroya qədər illik mənfəətdən vergi dərəcəsi 20% (əvvəl 25%), bu məbləğdən artıq illik mənfəətdən 25% (əvvəl 30%) dərəcə ilə vergi tutulur. Güzəştli dərəcələr aşağıdakı şərtlər yerinə yetirildikdə qüvvədədir:

♦ xalis gəlir 5 mln. avrodan (6,5 mln. ABŞ dolları) azdırsa;

♦ orta işçi sayı 25-dən azdırsa;

♦ məşğulluq təmin edilirsə və ya artırılırsa, kiçik və orta müəssisələr güzəştli dərəcələrdən yararlana bilərlər.

İspaniyada müəssisələrin məşğulluq siyasətini təşviq etmək məqsədilə güzəştli dərəcələr güzəşt tələb edilən vergi dövründə 12 ay ərzində orta işçi sayı 01.01.2009-cu ildən sonrakı ilk vergi ilində olan işçi sayından 1 vahid az olmamalıdır.

2010-cu il dekabrın 31-nə qədər bütün rezident müəssisələr Kommersiya, Sənaye və Naviqasiya Palatası üçün illik qeydiyyat haqqı kimi mənfəət vergi əlavəsi («surcharge») ödəmək məcburiyyətində idilər. 2011-ci il yanvarın 1-dən etibarən bu vergi əlavəsi yalnız həmin Palataya üzv olan müəssisələr üçün məcburi olaraq qalır. Vergi əlavəsi ödənilməli olan mənfəət verginə 0,75%-dən (60.101,21 avroya qədər gəlirdən) 0,01%-dək (24.040.484,18 avrodan artıq gəlirdən) dərəcədə tətbiq edilir. Bu vergi əlavəsi mənfəət vergisi məqsədləri üçün gəlirdən çıxılır.

Ödəmə mənbəyində vergilər: Dividend və digər mənfəət bölüşdürmələrindən ödəmə mənbəyində 19% dərəcə ilə vergi tutulur. Lakin 2012, 2013 və 2014-cü vergi illəri üzrə bu dərəcə 21% təşkil edir. Səhm dividendləri vergitutma obyekti deyil.

Faizlər və royaltilər üzrə ödəmə mənbəyində verginin standart dərəcəsi 19% olsa da 2012, 2013 və 2014-cü vergi illəri üzrə bu dərəcə 21% təşkil edir.

Ödəmə mənbəyində vergidən azadolmalara əsasən aşağıdakılar aid edilir:

♦ rezident banklar və maliyyə institutlarına (daimi nümayəndəliklər də daxil olmaqla) adi kreditlər üzrə ödənilən faizlər və bununla əlaqəli komissiyalar İspaniyada mənfəət vergisinə cəlb olunur.

♦ İspaniyada rezidentlərin Xəzinədarlıq və Mərkəzi bank tərəfindən pul bazarını tənzimləmək məqsədilə buraxılmış xəzinə bonları və qiymətli kağızlardan əldə olunan faizlər ödəmə mənbəyində vergitutmadan azaddır.

İnvestisiya çıxılmaları və güzəştləri: İspaniyada investisiya çıxılmaları mənfəət vergi öhdəliyinin 35%-i həcmində (bəzi istisna hallarda 50% və 60%) məhdudlaşdırılır. Lakin kral fərman-qanunu ilə 2012-2013-cü illərdən başlanan vergi illərinə münasibətdə bu, 25%-dək endirilmiş, 29 oktyabr 2013-cü il tarixli qanunla həmin məhdudiyyət 2014-2015-ci vergi illərinə də şamil edilmişdir.

2013-cü il yanvarın 1-dən sonra araşdırma və inkişaf (R&D), innovasiya fəaliyyətinə başlamış vergi ödəyiciləri yuxarıda qeyd olunanlardan fərqli müddəalar tətbiq etmək metodunu seçə bilərlər. Yəni qeyd olunanların əvəzinə, onların vergi çıxılmasının 20% azaldılması şərtilə, tam həcmdə tətbiq etmək hüquqları vardır. Əgər vergi ödəyicisinin vergi öhdəliyi çıxılma məbləğindən az olarsa, çıxılmanın artıq hissəsi kompensasiya oluna bilər.

Qanunla icazə verilən investisiya vergi çıxılmaları aşağıda göstərilən hədlərdən çox ola bilməz:

♦ texnoloji innovasiyalar üzrə 1 mln. avro;

♦ araşdırma və inkişaf, texnoloji innovasiyalar üzrə 3 mln. avro.

Bu vergi güzəştindən istifadə edilməsi üçün xüsusi tələblər ödənilməlidir.

2012-ci ildən istifadə edilməyən vergi çıxılmaları (güzəştləri) hər il üzrə maksimum norma nəzərə alınmaqla 15 il və ya araşdırma və inkişaf çıxılmaları üzrə 18 il müddətinə növbəti dövrə keçirilə bilər.



*İcmalı Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsi təqdim edib*

krossvord



**Yuxarıdan aşağı:** 1.Bəhreynin paytaxtı; 2.Braziliya və Venesuela arasında yerləşən dağ; 3.Qədim yunan mifologiyasında personaj. Siciliyalı qəhrəman; 4.Şimali Avropanın qərbində yerləşən ada dövlətinin rəsmi dili, german dillərinin Skandinaviya qrupuna aiddir; 5.İki komanda arasında oval-şəkilli topun əl və ayaqla nəzarət edilməsi əsasında oynanılan komanda oyunu; 6.İslam aləmində müqəddəs bayramlardan biri; 9.Türk və Altay mifologiyasında tanrı adı; 13.Kimyəvi element; 15.Monitor, ekran; 16.İkitəkərli nəqliyyat növü; 17.Fransız rəssamı, qrafiki və heykəltəraşı. İmpressionizm cərəyanının parlaq nümayəndələrindən biri; 18.Məhəmməd peyğəmbərin nəvəsi; 20.İsmayıllı rayonunda qəsəbə; 21.Türkiyənin «Beşiktaş» futbol komandasının hücumçusunun soyadı. **Soldan sağa:** 1.Mübadilə fəaliyyətini həyata keçirmək üçün bazarda aparılan məqsədyönlü fəaliyyət; 5.Zirehli texnika əleyhinə qumbaraatan; 7.Yevlax rayonunda kənd; 8.Rusiyada çay; 10.Türk dilində ilin 5-ci ayının adı; Türkiyə təqvimində ilin 5-ci ayının adı; 11.Neptunun üçüncü ən böyük peyki; 12.Müasir döyüş sənəti, idman növü; 14.Respublikamızda rayon; 19.Aypara şəklində olan içi ətli italyan piroqu; 21.Cənubi slavyan xalqlarında simli, kamanlı çalğı aləti; 22.Pireney yarımadasında ən böyük çay; 23.Bor tərkibli alümosilikat qrupundan mineral (qırmızı, bənövşəyi, çəhrayı, göy, yaşıl və s. rənglərdə olur) zinət əşyalarının istehsalında geniş istifadə olunan qiymətli daş; 24.Məşhur hind kinorejissoru, ssenarist, prodüser və aktyorun adı; 25.Özbəkistan ərazisində Səmərqəndin şimalında bizim eradan əvvəl 500-cü il ilə 1220-ci illər arasında salınmış qədim şəhər.



*«Avara» filmindən epizod*

Tərtib etdi: Rafael

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Yuxarıdan aşağı:** 1.Dialoq; 2.Difenil; 3.Klina; 4.İranzu; 5.Rolla; 6.Buldoq; 9.İrar; 13.Aişə; 15.«Oyuncaq»; 16.Salyan; 17.Skvayr; 18.Pioner; 20.Tivat; 21.Mimas. **Soldan sağa:** 1.Didaktika; 5.Rüb; 7.Affrikat; 8.Əlil; 10.Omnya; 11.«Zerkalo»; 12.«Almaz»; 14.Arqon; 19.Artişok; 21.Mauri; 22.Yava; 23.Lahmacun; 24.Not; 25.Portsiqar.

Vergilər
SOSİAL-İQTİSADİ HƏFTƏLİK
12 fevral 2000-ci ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Vergilər Nazirliyi

Baş redaktor: Anar Əliyev anar.eliyev@taxes.gov.az

Baş redaktor müavini: Məti Osmanoğlu redaksiya@vergiler.az

Qeydiyyat şəhadətnaməsi № R148
VÖEN: 1300327481
IBAN: AZ46ATAZ01200012258000138090
Atabank ASC. Kod: 507581
VÖEN: 9900006651

M/h: AZ50NABZ01350100000000032944
S.W.I.F.T. BIK ATAZAZ22

Ünvan: AZ 1141, Bakı ş., Əbdürrəhim bəy Haqverdiyev küç., 60

Telefon: 012 403 87 89, 012 403 87 95 (faks / abunə ilə bağlı)

«Vergilər» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və «Azərbaycan» nəşriyyatında çap olunmuşdur.

Tiraj: 14000

## idman

# Velosipedçimiz dünya çempionatında 8-ci oldu




*ABŞ-ın Riçmond şəhərində velosiped idmanının şose növü üzrə dünya çempionatına start verilib. İlk yarış günü qadınlar arasında komanda ötüşməsində qaliblər müəyyənləşib.*

Azərbaycan Velosiped İdmanı Federasiyasının yaydığı xəbərə görə, yığma komandamızın üzvü Yelena Pavluxina mundialda Sloveniyanın «Lyublyana» klubunun heyətində çıxış edir. Təmsilçimizin şərəfini qoruduğu kollektiv 38,8 kilometr məsafəni 50 dəqiqə 38 saniyəyə başa vurmaqla çempion olmuş Almaniyanın «Velocio-SRAM» komandasından 3 dəqiqə 3 saniyə geri qalıb. Bununla da Yelena Pavluxina dünya çempionatını «Lyublyana» komandasının heyətində 8-ci yerdə bitirib.

# Şəhriyar Məmmədyarov dörddəbir finalda...




Bakıda keçirilən şahmat üzrə Dünya Kuboku uğrunda yarışlar davam edir. Azərbaycan qrossmeysteri Şəhriyar Məmmədyarov səkkizdəbir finalda amerikalı qrossmeyster Fabiano Karuanaya qalib gələrək dörddəbir finala yüksəlib.

İlk oyunda ağ fiqurlarla oynayan həmyerlimiz inamlı qələbə qazanıb. Təkrar qarşılaşmada üstünlüyü əldən verməyən Ş.Məmmədyarov 40-cı gedişdə F.Karuananı heç-heçə ilə razılaşmağa məcbur edib və iki oyunun nəticəsinə əsasən növbəti mərhələyə adlayıb.

Dünya Kuboku yarışlarının dördüncü dövrəsinin iki partiyasından sonra nəticələr belədir: Hikaru Nakamura (ABŞ) Maykl Adamsa (Böyük Britaniya) qalib gəlib. Rusiya şahmatçıları Dmitri Andreykin ilə Sergey Karyakinin, Aniş Giri (Niderland) ilə Radoslav Voytaşekin (Polşa) görüşləri heç-heçə başa çatıb: 1:1. Bu şahmatçılar tay-breyk oyunlarında güclərini sınayacaqlar.

Qeyd edək ki, Azərbaycan yığmasının liderlərindən olan Teymur Rəcəbov Dünya Kuboku yarışlarının 1/16 final mərhələsi çərçivəsində rusiyalı Pyotr Svidlerə tay-breykdə uduzaraq mübarizəni dayandırıb. Daha əvvəl isə digər qrossmeysterlərimiz - Vasif Durarbəyli, Eltac Səfərli, Rauf Məmmədov və Qədir Hüseynov da yarışlardan kənarlaşıblar.

Yarışın ümumi mükafat fondu 1,6 milyon dollardır. Qalib 96 min dollar, finalçı 40 min dollar, dörddəbir final mərhələsinə yüksələn şahmatçılar hərəyə 28 min dollar qazanacaqlar. Qalib və finalçı 2016-cı ildə iddiaçıların turnirində iştirak etmək hüququ əldə edir.

# «Rio-de-Janeyro 2016»ya növbəti lisenziya

Böyük Britaniyanın paytaxtı Londonda 2016-cı ildə Rio-de-Janeyro şəhərində keçiriləcək Yay Olimpiya Oyunlarına lisenziya xarakterli kanoe-slalom üzrə dünya çempionatı keçirilib. Nüfuzlu reqatada Azərbaycanı Yure Meqliç təmsil edib. 31 yaşlı idmançımız kişilər arasında 1 nəfərlik kayak qayığı ilə mübarizə aparıb. O, seçmə mərhələdə 83,73 xalla 11-ci yeri tutaraq yarımfinala yüksəlib.

Növbəti mərhələdə Y.Meqliç 95,20 xalla 14-cü olub. Bu nəticə ilə Azərbaycan təmsilçisi final mərhələsindən kənarda qalsa da 15 ən güclü kanoe-slalomçu sırasına düşdüyündən, reqlamentə əsasən, Olimpiadaya lisenziya qazanıb.

Beləliklə, Azərbaycan Milli Avarçəkmə Federasiyası təmsil olunduğu dörd Olimpiya növünün hamısında lisenziya əldə edib. Daha əvvəl akademik avarçəkənlər Aleksandr Aleksandrov və Boris Yotovdan ibarət duet iki nəfərlik qayıqla 2000 metr, kayakçı İnna Osipenko-Rodomska qadınlar arasında bir nəfərlik qayıqla 200 metr və 500 metr, kanoeçi Valentin Demyanenko bir nəfərlik qayıqla 200 metr məsafəyə yürüşdə lisenziyaya sahib çıxıb.

# Bakıda daha bir beynəlxalq turnir

Son illər ölkəmizdə müxtəlif idman növləri üzrə mötəbər beynəlxalq yarışların təşkil olunması artıq ənənə şəklini alıb. Sentyabrın 30-da Azərbaycanın paytaxtında «Baku Open-2015» ənənəvi beynəlxalq şahmat festivalı çərçivəsində «A» turnirinin start götürməsi bu xoş ənənənin davamı kimi qiymətləndirilməlidir.

Azərbaycanın dövlət müstəqilliyinin bərpa edilməsinin 24-cü ildönümünə həsr olunacaq turnirdə iştirak etmək üçün bu günədək 13 ölkədən 40 şahmatçı, o cümlədən 16 qrossmeyster müraciət edib. «A» əsas turnirində azərbaycanlı şahmatçılardan qrossmeysterlər Vüqar Rəsulov, Sərxan Quliyev, Günay Məmmədzadə, beynəlxalq ustalar Loğman Quliyev, Bəhruz Rzayev, Nicat Ağayev, Orxan Abdulov, Talıb Babayev, Kənan Heydərli, Səbinə Quliyeva və başqaları iştirak edəcəklər.

Yarışların reytinq favoriti Başkaran Adxibandır (2674 xal). Bununla yanaşı, 11 nəfərin reytinqi 2500 xaldan yüksəkdir, daha 13 nəfər isə 2400-2500 reytinq xalı göstəricisi arasında qərarlaşıb.

«Baku Open-2015» beynəlxalq turniri İsveçrə sistemi üzrə 9 turda keçiriləcək.

## mozaika

# Moskva Dövlət Tibb Universitetinin Bakı filialı

şad xəbər

Sentyabrın 15-də - Bilik günündə paytaxtımızda dünyanın nüfuzlu ali təhsil ocaqlarından biri sayılan Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin filialının təntənəli açılış mərasimi olub.

Azərbaycanın birinci xanımı, Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin məzunu və fəxri professoru Mehriban Əliyeva, Rusiyanın səhiyyə naziri Veronika Skvortsova, universitetin rektoru Pyotr Qlıboçko mərasimdə iştirak ediblər.



Tədbir iştirakçılarının nəzərinə çatdırılıb ki, filialın yaradılmasında məqsəd Azərbaycanda tibb təhsilinin təkmilləşdirilməsi və bu sahədə dünyanın nüfuzlu ali təhsil mərkəzləri ilə əlaqələrin genişləndirilməsindən, həmçinin ölkə vətəndaşlarının Rusiyanın tibb təhsili müəssisələrində oxumaq arzusunun təmin olunmasıdır. Gələcəkdə Bakı filialının nəzdində Rusiya və Azərbaycan tibb elminin tədqiqi tarixinin mərkəzinin yaradılması planlaşdırılır.

Bakı filialının konfrans zalında filialın və Moskvadakı universitetin müəllimləri arasında onlayn rejimində seminarlar, vebkonfranslar, telekörpülər keçiriləcək. Ali təhsil ocağında yaradılmış «Simulyasiya mərkəzi» - müasir simulyasiya texnologiyalarının tətbiqi ilə fəaliyyət göstərəcək innovasiya-təhsil meydançasıdır. Bu mərkəz tələbələrin praktiki klinik elmlərə yiyələnməsi üçün nəzərdə tutulub.

Yeni tədris ilindən etibarən universitetin filialında 100 tələbə «müalicə işi» ixtisası üzrə dövlət sifarişi əsasında təhsil alacaq. Seçenov adına Birinci Moskva Dövlət Tibb Universiteti Bakıda yaradılan filialın kadrlarla təminatına və tədris prosesinin təşkilinə metodoloji dəstək verəcək. Yeni nəsil Rusiya dövlət təhsil standartlarına uyğun aparılacaq tədris prosesinə dünyada tanınmış Rusiya alimləri cəlb olunacaq. Filialda həkim-mütəxəssislərin hazırlanması zamanı innovativ təhsil texnologiyaları tətbiq olunacaq və master-klaslar keçiriləcək.

Filialdakı kimya, fizika, biologiya auditoriyaları da ən müasir avadanlıqla təchiz olunub və peşəkar mütəxəssislərin yetişdirilməsinə imkan verəcək. Bu laboratoriyalar müəllim və tələbələr üçün avtomatlaşdırılmış işçi yerləri, multimedia kursları üçün interaktiv lövhələrlə təmin olunub. Tibb sahəsində fundamental elm sayılan anatomiyanın öyrənilməsi üçün Bakı filialında Anatomiya zalı yaradılıb. Bu zalda həm ənənəvi preparatlar vasitəsilə, həm də ən müasir texnologiyalarla insan orqanizmi haqqında biliklərə yiyələnmək mümkündür. Burada 3D anatomiya masası vasitəsilə virtual anatomiya tətbiq ediləcək. Zalda, həmçinin, insan bədəninin sintetik zülalından əzələ modeli də var. Bu modeldə əzələlərin tərkibi insan əzələlərinə tam uyğundur. Anatomiya auditoriyasında praktiki dərslər keçiriləcək.

# Dünya daşınmaz əmlak bazarında yeni oyunçu

iqtisadiyyat

***Çin investorları ölkələrindəki qeyri-stabil iqtisadi vəziyyətə görə dünya daşınmaz əmlak bazarına üz tutub. İnvestisiyaların həcmi isə artıq bir neçə trilyon ABŞ dollarına çatır. Biznesmenləri ən çox cəlb edən ABŞ, Böyük Britaniya və Avstraliyanın daşınmaz əmlak bazarlarıdır.***

«AS Group İnvestment» şirkətinin təhlilinə görə, Çin biznesmenləri tərəfindən daşınmaz əmlak bazarında yaradılan bum yaxın müddətdə başa çatmayacaq.

Bu ilin iyun ayında Çin fond bazarında 40 faiz enmə qeydə alınıb, keçən ay isə hakimiyyət Çin valyutası - yuanın enməsinə imkan verib. Mövcud vəziyyət daşınmaz əmlak aktivlərinin müdafiəsi üçün ən optimal və təhlükəsiz variantdır. London, Nyu-York və Sidney yaşayış sektoru bazarında Çin investorları xüsusilə aktivdir. Həmçinin, onlar ABŞ daşınmaz əmlak bazarında da əsas oyunçulardır. Burada satışlar son 12 ayda rekord həddə - 29 milyard dollara gəlib çatıb. Beləliklə, Rieltorların Milli Assosiasiyasının qiymətləndirməsinə görə, çinlilər ABŞ-da əcnəbilər tərəfindən alınan daşınmaz əmlakın 25 faizinə sahibdirlər.

Londonda Çin investorları tərəfindən alınan daşınmaz əmlak da eyni göstəriciyə (25 faiz) malikdir. Avstraliyada isə çinlilərə 2015-2020 illərdə satılan mənzillərin ümumi dəyəri 60 milyon dollar təşkil edəcək ki, bu da ötən altı ilin göstəricilərindən iki dəfə çoxdur.

tam ciddi

# Göydələndə meyvə-tərəvəz

Almaniya memarları Aqneşka Praybiş və Piter Sandxaus birgə hazırladıqları «Green 8» göydələninin layihəsini Berlinin şərq hissəsində həyata keçirməyi planlaşdırırlar.



Memarlar binaya «şaquli ev-bağ» şərti adını veriblər. Layihə müəllifləri həm də iddia edirlər ki, bununla onlar əhalinin mənzil problemini həll etməklə yanaşı, təbiətlə yaxından təmaslarına da şərait yaratmış olurlar. Göydələn formaca 8 rəqəmini xatırladır. Binanın daxilində gül, meyvə və tərəvəzlərin yetişdirilməsi üçün bağça və parniklərin salınması planlaşdırılır.

Bundan əlavə, bina sakinlərinin sağlamlığı məqsədilə idman zalı və hovuz da inşa olunacaq.

# Yeni rekordçular

rekord

***Böyük Britaniyada yaşayan və saniyədə 28 santimetr məsafə qət edən Berti adlı tısbağa dünyanın ən sürətli tısbağası kimi tanınıb.***




Onun nailiyyəti Ginnesin yeni rekordlar kitabına daxil edilib. Ginnesin rekordlar kitabının yeni nəşrində dünya üzrə ən parlaq və gözlənilməz rekordlar toplanıb. Məsələn, ingiltərəli Linsey Lindberq qalın telefon kitabçasını cıra bilməsi ilə fərqlənir. Nəşrin əsl ulduzu isə Yaponiyada yaşayan «futbolçu» it olub. O, bir dəqiqə ərzində pəncələri ilə 14 topu tuta bilir. Yeni nəşrdə velosipedçilər, yüngül atletlər arasında da rekordçular var. Rekorda, həmçinin, dünyada ən hündür ər-arvad sayılan iki Çin vətəndaşı da imza atıb. Onların boylarının ümumi hündürlüyü 4 metri ötür.

## Müdriklər deyib ki...



***«Yalan meşə kimidir: nə qədər uzağa getsən, çıxmaq bir o qədər çətin olacaq».***

*Anton Çexov (1860-1904)*